# ABŞ-ın "Böyük Yaxın Şərq" projesi işə düşür...

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№46 (3337) 10 Dekabr / 2024-cü il | Həftədə 1 dəfə çıxır | Qiymәti: 60 qəpik

**ANA XƏBƏR**



## Azərbaycanda narkomanların sayı azalır, yoxsa artır?

# Azərbaycanda ov mövsümü niyə hələ də açılmır?

Və yaxud ovçuluq turizminə kimlər və nə məqsədlə mane olur?



Ekologiya və Təbii Sərvətlər Nazirliyində qanunsuz olaraq xidmət rəisi vəsifəsi tutan Firuddin Əliyev kimin hesabına "at oynadır"?..

2

**GÜNÜN NƏBZİ**

Baxış

## Özünü axtaran adam



Rasim Qaracanın "Zülmətdə alatoran" adlı avtobioqrafik romanı haqda

3

Cəmiyyət

## AZAL, VKRH hüquqi ünvanlarını dəyişiblər?

Məhkəmələrin məhkəmə müdafiəsi hüququna "ərazi aidiyyatı" qadağası

4

LAYİHƏ

## İnsanlar öz mühitinin güzgüləridir

Sosial mühitin anlamı və konsepti

12

Ölkə

## Şəhid ailəsi adından sui-istifadə

"Hürriyyət"ə ünvanlanan məktublarla bağlı Böyükağa Abdullayevdən açıqlama

10

Tarix

## Qərbi Azərbaycanın II Dünya müharibəsində iştirak edən Türk-Müsəlman əhalisi

14

Cəmiyyət

## Qaynar ölkə



Səni eşitmək istəməyənə söz demək, kora güzgü vermək kimidir - «sağ ol» deməz...

4

Tibb

## Şəxsiyyət pozğunluğu nədir?



Həkim-psixiatr Abdulla Şıxlinski: "Bunu xəstəlik kimi təqdim etmək lazımdır"

5

Yaddaş

## Allahın bəlası haya verildi

12 dekabr 1988-ci ildə zəlzələdə zərərçəkmiş ermənilərə yardım göstərmək məqsədilə Azərbaycandan göndərilmiş il-76 təyyarəsi Ermənistanın Spitak rayonunun Quqark şəhərinin yaxınlığında "Stinger" raketi ilə vuruldu. Nəticədə təyyarədə olan 77 azərbaycanlıdan cəmi 1 nəfər - Balayev Fəxrəddin təsadüf nəticəsində sağ qalır. 68 nəfər azərbaycanlı sərnişin və 9 nəfər ekipaj üzvü bu terror aktının qurbanı olur. Qəzanın səbəbləri öyrənilmədən, heç bir ekspertiza aparılmadan təyyarənin qara qutusu məhv edilir. Bu terror aktı qəza hadisəsi kimi cəmiyyətə sırınır. Təsadüfən sağ qalmış Fəxrəddin Balayev İrəvan xəstəxanasına aparılsa da, "ermənilər arasında yaralı türkə yer yoxdu", - deyən daşnak xislətli erməni həkimləri onu müalicə etməkdən boyun qaçırırlar...

15

Baxış

## Yenə də ümumtürk ədəbi dilimiz haqqında

Tarix üzrə fəlsəfə doktoru Hacı Nərimanoğlunun mətbuatda dərc olunan "Türk dili və əlifbası Türk Dövlətləri Birliyinin ortaq dili, əlifbası olaraq qəbul edilməlidir", başlıqlı məqaləsi məni bir daha ümumtürk ədəbi dilinin yaradılmasının zəruriliyi, onun hansı əsaslar və qaydada formalaşdırılması məsələsinə qayıdaraq, adıçəkilən məqalədə irəli sürülən fikirlərə münasibəti bildirməyimi zəruri etdi. Müəllif bu məsələnin həll edilməsi haqqında hökm formasında başlıqda ifadə edilmiş fikrinin səbəbini qısa izah etdikdən sonra, bu variantın qəbul edilməsini zəruri səbəblər qismində müxtəlif amilləri sadalayaraq fikrini əsaslandırmağa çalışır.

7

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№46 (3337) 10 Dekabr / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qәpik

# Hərbçiyə çevrilmiş oftalmoloq

## Bəşər Əsədi sahib olduğu milyardlar qoruya biləcəkmi?



**Suriyanın devrilmiş prezidenti Bəşər Əsəd hazırda dünya mediasının gündəmində olan əsas şəxslərdən biridir. Bəs, Bəşər Əsəd kimdir, harada və nə zaman anadan olub?**

Bəşər Əsəd 1965-ci il 11 sentyabrda Dəməşqdə, müdafiə naziri Hafiz Əsədin ailəsində göz açıb. Ölkənin nüfuzlu Kəlbiyyə qəbiləsindəndir.

***- Bəşər Əsəd harada təhsil alıb?***

Dəməşqdəki fransız-ərəb təmayüllü "əl-Hürriyyə" liseyində orta təhsilini bitirən Əsəd, daha sonra Dəməşq Universitetinin Oftalmologiya fakültəsinə daxil olub. 1992-ci ildə o, oftalmologiya üzrə təcrübə keçmək və təhsilini davam etdirmək üçün İngiltərənin paytaxtı Londona gedib və burada Qərb Göz Hospitalında təcrübə keçib.

***- Bəşər Əsəd hakimiyyətə necə gəlib?***

1970-ci ildə atası Hafiz Əsəd dövlət çevrilişi edərək, hakimiyyətə gəlib.

Atası özündən sonra Baseli prezident görmək istəyirdi. Lakin Basel gözlənilmədən qəzaya düşüb həlak olur, ata gözünü ikinci oğluna dikir. O zamana qədər Bəşər (ərəbcə Bəşşər) ölkəsində tibb universitetini fərqlənmə diplomu ilə başa vurub, oftalmoloq kimi Britaniyada özünü təkmilləşdirmişdi. O hətta xüsusi münasibət görməmək üçün Britaniyada başqa ad altında oxuyur və işləyirdi.

1988-ci ildə Universiteti bitirən Bəşər Dəməşqdə yerləşən "Tişrin" hərbi hospitalında göz həkimi işləməyə başlayıb. Vətənə qayıtdıqdan sonra Bəşər atasının istəyi ilə Homs şəhərindəki hərbi akademiyaya qəbul olunur və dərhal Respublika Qvardiyasının kapitanı rütbəsini alıb. 1996-cı ildə mayor, 1997-ci polkovnik-leytenant, 1999-cu ildə polkovnik rütbəsini alıb. Bəşər Əsədin apardığı antikorrupsiya tədbirləri nəticəsində korrupsiyada ittiham olunan Nazirlər Kabinetinin sədri Mahmud -əz-Zoabi 2000-ci ildə özünü kabinetdə güllələyir, o, öz əmisi oğluna da güzəşt etmir, onun şirkətini də bağlatdırır. 10 iyun 2000-ci ildə Hafiz Əsəd vəfat edir. Həmin gün parlament prezidentlik üçün lazım olan yaş həddini tələsik 40-dan 34-ə salır. 11 iyunda prezident səlahiyyətlərini icra edən Həddam Bəşər Əsədə general-leytenant rütbəsi verir və onu ali baş komandan təyin edir. İyulun 10-da referendum nəticəsində Bəşər Əsəd 92,29 faiz səslə Suriya prezidenti seçilir. Və o gündən sonra onun taxtdan salmaq imkansız olur. Ərəb Bəşərin xristianlıq sevgisinə görə, ona Müdrik Yaroslav ordeni, Ermənistanın Müqəddəs Qriqori ordeni verilib.

Bu lider öz şəklini milli pul vahidlərinin üzərinə də döydürüb.

***- Bəşər Əsədin başqa bacı - qardaşları var?***

Onun Buşra adlı bir bacısı, Basel, Mahir və Məcid adlı qardaşları var idi. Mahir Əsəd ərəb dünyasında özünün dəlisov xarakteri ilə tanınır. Nüfuzuna görə, Suriyada ikinci adam sayılır. Onun adı ətrafında qalmaqallar səngimir. Livan lideri Rafiq Həririni ölümünü təhqiq edən komissiyanın rəyində bu qətlin sifarişçisi kimi Mahirin adı çəkilir. Əlbəttə bu Bəşərdən xəbərsiz edilməmişdi. Ən kiçik qardaşı Məcidin adı narkobizneslə əlaqələrdə hallanır. Onu həm də "ana uşağı" adlandırırlar.

***- Bəşər Əsədin ailəsi haqqında nə bilirik?***

Bəşərin həyat yoldaşı Əsma Suriya tarixində göz önündə olmuş ilk birinci xanımdır.

Əsmanın anası Suriyanın Böyük Britaniyadakı səfirliyinin birinci katibi, atası isə Kardioloji Mərkəzin aparıcı məsləhətçisi olub. Əsma Londonda doğulub və boya - başa çatıb. Baletlə məşğul olub. Londonda Kral kollecini bitirən Əsma kompüter elmləri və fransız ədəbiyyatı üzrə diplom alıb, ərəb, ingilis, ispan və fransız dillərini sərbəst bilir. Evlənərkən onun 20, Bəşərin 31 yaşı var idi.

Bəşər Əsədin toyu 2000-ci ildə olub. Əsmanın gəlişi ilə Suriyada qadınların həyatında xeyli dəyişiklik oldu. Suriyalılar prezidentin xanımını ilk dəfə 2001-ci ildə gördülər. Bəşər Əsəd Bolqarıstan prezidentini qarşılayarkən həyat yoldaşı ilə gəlmiş, Əsmanın geyimi suriyalıları xeyli təəccübləndirmişdi. 2008-ci ildə Əsma Əsəd ərəb dünyasının birinci ledisi elan edilib. Ərəblərin hamısı üçün bu keçərlidirmi? Çətin.

Bəşər Əsədin üç uşağı - iki oğlu və bir qızı var. Prezident hansı ölkəyə rəsmi görüşə gedirsə, xanımı və uşaqlarını özü ilə aparırdı. Deyilənə görə, Suriya əhalisi prezidenti və uşaqlarını küçədə gəzərkən, restoranda oturarkən görə bilirdi. Hərçənd xarici media yazır ki, bu milyonlarla vətəndaşı qaçqın həyatı yaşayan, xarabaya çevrilmiş bir ölkənin liderinə demokrat görüntüsü vermək cəhdindən başqa bir şey deyildi.

***- Bəşər Əsədin nə qədər sərvəti var?***

Onun ümumi sərvətinin Suriyanın 7 illik dövlət büdcəsinə bərabər olduğu deyilir.

Ailənin Böyük Britaniya, Rusiya, Dubay, Livan və Honkonqda daşınmaz əmlakı və bank hesabları var. Bu aktivləri prezidentin yaxın qohumları Suriya iqtisadiyyatının böyük hissəsinə nəzarət edən şirkətlər vasitəsilə idarə edirlər.

**Əsəd ailəsinin real sərvətinin bir qismi:**

*- 5 milyard avro;*
*- 16 milyard dollar;*
*- 200 ton qızıl;*
*- Böyük Britaniyada dondurulmuş 100 milyon funt sterlinq;*
*- Neft və qazdan gəlirlər (dəqiq məbləğ məlum deyil);*
*- Suriya və xaricdə (o cümlədən Avropada) daşınmaz əmlak;*
*- Atası Hafiz Əsəddən qalan miras (dəqiq məbləğ məlum deyil).*

Məlumata görə, prezidentin mülkiyyətində "Mercedes-Benz S-Class" (dövlət tərəfindən verilib), "BMW 7" avtomobilləri, Hələb, Dəməşq və Laziqiyyədə saraylar var.

***- Bəşər Əsəd hakimiyyətinə kim son verdi?***

Suriyada Bəşər Əsədin hakimiyyəti 2024-cü il dekabrın 8-də Suriya müxalifət qüvvələrinin koalisiyası tərəfindən devrildi. Bu hadisə 50 ildən çox davam edən BƏƏS Partiyasının idarəçiliyinə son qoydu.

## Əyləncə səhifəsi

# Təbiətin möcüzəsi, yaxud bir xalq əfsanəsi

**Toradi Astara rayonunun ucqar dağ kəndidir. Qədim bir keçmişi var bu ulu yurdun. Toradidən təqribən 4 kilometr aralıda yerləşən bir qayalıq uzaqdan belə adamın diqqətini cəlb edir. Qərb-şərq istiqamətində 200 metr uzunluqdakı ərazidə sıralanan təbiətin yaratdığı möcüzəsinə ulular tərəfindən "Gəlin qayaları" , yaxud "Gəlin daşları" adı verilib.**



Mən ta məktəb illərindən öz tarix müəllimimdən qayalıq haqqında, onunla bağlı əfsanə barədə eşitmişdim. Amma oranı görmək istəyində olsam da, getməyə imkan tapa bilmirdim. Bu günlər yolum həmin möcüzəli yerə düşdü. Diqqətlə fikir verəndə qayalardan birini əjdahanın başına oxşatdım. Belə də adlanırdı. Həmçinin at üstündə daşlanmış gəlin gördüm. Gəlinin yanında əlində güzgü aparan uşaq, eləcə belində uşağı olan qadın formal daşlar da diqqətimdən yayınmadı. Burada insan bənzər cərgələnən digər daşlarda var idi...

Bəli, nizamlı şəkildə sıralanan bu daşlarla bağlı uzaq keçmişdən xəbər verən ibrətamiz bir əfsanə indinin özündə də dillərdən düşmür. Belə ki, yeni əfsanəyə görə Toradidə bir toy mərasimi keçirilirmiş. Gəlin qonşu kənddən imiş. Adətə görə gəlin gətirmə mərasimi olur. Gəlin gətirilən zaman onların qarşısına yekə bir əjdaha çıxır. İnsanlar dəhşətli qorxuya düşürlər. Vəziyyətdən qurtulmaq üçün Uca Tanrıdan əjdahanın yerinə özləri daş olmaq istəyirlər. Öz bəndələrinin səsini eşidən Yaradan həm onları, həm də əjdahanı daşa çevirir.

**Zəfər ORUCOĞLU**

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik
Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

# Azərbaycanda ov mövsümü niyə hələ də açılmır?

## Və yaxud ovçuluq turizminə kimlər və nə məqsədlə mane olur?

### Ekologiya və Təbii Sərvətlər Nazirliyində qanunsuz olaraq xidmət rəisi vəsifəsi tutan Firuddin Əliyev kimin hesabına "at oynadır"?..



**Azərbaycanda ovçuluq turizmi hər zaman diqqət mərkəzində olub. Təsadüfi deyil ki, son illər, xüsusilə də ərəb ölkələrindən ov etməyə gələnlərin sayında ciddi artım müşahidə olunur. Əlbəttə, bu, təqdirolunan haldır. Çünki Azərbaycana gələn hər bir turist özü ilə böyük məbləğdə valyuta gətirir ki, bu da turizm sektorunun, ümumilikdə ölkəmizin inkişafına təkan verən amillərdəndir.**

Odur ki, ölkəmizdə turizm sektorunun, eynilə ovçuluq turizminin inkişafı üçün elə bir mühit yaradılmalı və qanunlarımız o dərəcədə mükəmməl işləməlidir ki, təkcə hansısa ərəb ölkəsindən deyil, bütün dünya dövlətlərindən Azərbaycana turist axını olsun. Zənnimizcə, bunun üçün ölkəmizin istər qardaş Türkiyə, istər də qonşu Gürcüstan qədər turizm potensialı mövcuddur. Nəzərə alsaq ki, hər iki ölkə büdcəsinin önəmli hissəsini turizmdən gələn gəlir hesabına formalaşdırır, eynilə Azərbaycanda da bu sektoru inkişaf etdirməklə, əhalimizin rifahını daha da yaxşılaşdıra bilərik. Üstəlik, Qarabağın və işğaldan azad olunan rayonlarımızın bərpasından sonra bu sahədə daha geniş imkanlara malik olduğumuz da şübhəsizdir.

Əminliklə deyə bilərik ki, ov turizmi təbii relyefi imkan verən istənilən ölkədə turizm potensialının əsas göstəricilərindən biridir. Lakin, nədənsə, bu il ölkəmizdə ov sezonu hələ də açılmayıb. Xatırladaq ki, adətən, hər ilin sentyabr ayında ov mövsümünə start verilir. Amma COP29-a hazırlıq tədbirlərinin tərkib hissəsi kimi 2024-cü ilin yanvar ayında ölkəmizdə ov sezonu dayandırıldı. Təbii, bu cür mötəbər tədbir ərəfəsində belə bir qərarın verilməsi başadüşülən idi. Lakin, nəzərə alsaq ki, Azərbaycan COP29 tədbirini uğurla başa vurdu, ölkənin, təşkilatçıların, tədbirin hədəflərinin imicinə kölgə salacaq heç bir neqativ hadisə baş vermədi, qonaqlar çox razı halda öz ölkələrinə qayıtdılar, bəs, hələ də ov sezonunun açılmamasının anlamı nədir? Belə anlaşılır ki, fevral ayında ov sezonu yenidən və açılmadan bağlanacaq?!

Qeyd edək ki, məsələ ilə bağlı son günlər redaksiyamıza ovçular tərəfindən də müraciətlər daxil olur. Onlar deyirlər ki, Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev ən azı dövlət maraqlarını göz önünə alaraq, bu problemi müsbət şəkildə həll etməli, ov mövsümünü açmalıdır. Şikayətçilər bildirir ki, əslində, ov sezonunun bağlı qalması Ekologiya və Təbii Sərvətlər Nazirliyində çalışan bəzi işbaz məmurların işinə



Firuddin Əliyev

yarayır. Belə ki, onlar maddi maraq qarşılığında istədikləri adama ov etmək şəraiti yaradır, bu məmurlarla "anlaşmayanlar" isə heç bir halda ov ərazisinə buraxılmır. Bu baxımdan, ov sezonu bağlı qaldıqca qanunsuz ovçuların sayı da artmış olur. Üstəlik, bu vəziyyət bir az da davam edərsə, qanunsuz ovçuluq mütəşəkkil forma alacaq və daha böyük neqativ hallara gətirib çıxaracaq.

Ovçular əlavə edir ki, indiki vəziyyətdə qanunsuz yollarla hansısa məmurların cibinə girən pullar ov sezonu açıldıqda ölkə büdcəsinə daxil olacaq. Çünki, bu zaman təkcə əcnəbi turistlər deyil, yerli ovçular da kifayət qədər vəsait xərcləyirlər ki, həmin pullar da hansı məmurların cibinə deyil, bu və ya digər şəkildə dövlət büdcəsinə daxil olur. Bu səbəbdən, onlar səslərinin nazir Muxtar Babayevə çatdırılmasını xahiş edirlər ki, ovçuluq sahəsində mövcud olan qanunsuzluğa son qoysun. Ovçular inanırlar ki, müraciətləri M.Babayevə çatsa, nazir ov sezonunun daha əhəmiyyətli tərəflərini nəzərə alıb, sezonun açılmasını daha çox ləngitməyəcək.

Yeri gəlmişkən onu da qeyd edək ki, ovçuların redaksiyamıza müraciətindən sonra bu sahədə bir qədər geniş araşdırma aparmağı qərara aldıq. Əlbəttə, bu müraciətlər və mövzu ilə bağlı cəmiyyətdə gedən müzakirələr fonunda rəsmi şəxslərin məntiq və dərrakəyə sığmayan açıqlamaları, eləcə də bu sahənin idarə olumasındakı mövcud reallıq belə bir araşdırma aparmağı zəruri edirdi.

Çox yox, internetdə kiçik axtarışlardan sonra bu sahənin və ona cavabdeh şəxslərin səriştəsizliyi ilə bağlı rastlaşdığımız maraqlı məqamlar araşdırmanın məzmununu xeyli rəngarəng etdi.

Öncə onu qeyd edək ki, keçən əsrin ortalarından artıq rəsmi fəaliyyət sahəsi kimi tanınan və qanunvericiliklə tənzimlənən ovçuluq fəaliyyəti günümüzdə sadə xobbi olmaqdan çıxaraq, hüquqi akt statusu alıb. Yəni ov hüququ vətəndaş hüquq və azadlıqlarından biri kimi dövlət tərəfindən ölkənin ali qanuni olan Konstutsiyamızla qorunan bir fəaliyyətə çevrilib.

Yazımızın əvvəlində də qeyd etdiyimiz kimi, ov mövsümü hər il iyun ayının ilk istirahət günü açıllr. Maraqlıdır, bəs niyə indiyədək dünyənə düşüb və hələ də ciddi bir səbəb göstərilmədən ov sezonu açılmır. Üstəlik, nə üçün həvəskar ovçuların ovun açılmaması ilə bağlı xahiş və müraciətləri cavabsız qalaraq, vətəndaş hüquqları pozulur?!

İlk öncə bununla bağlı hansısa iclasın çağırılacağını vəd edən Ekologiya və Təbii Sərvətlər Nazirliyi rəsmisinin bəhs etdiyi Komissiyanı araşdırdıq. Məlum oldu ki, heç bir qanuni əsasa söykənmədən yaradılan bu komissiyada təmsil olunanların 90%-i elə həmin nazirliyin əməkdaşlarıdır. Hansı ki, onları gün ərzində bir yox, bir neçə dəfə yığaraq, bu qədər aktual olan məsələni həll etmək olar.

Bəs, sözügedən açıqlamanı verən cənab xidmət rəisi Firuddin Əliyevi bunu etməməyə vadar edən, ovçuların hüquqlarını israrla tapdamağa sövq edən nədir? Əlbəttə, hörmətli Muxtar Babayevin bütün məsələlərə adekvat münasibəti bizə çoxdan bəllidir. Biz burada qısa bir araşdırma edərək, "Firuddin Əliyev kimdir" sualına da cavab tapmağa çalışdıq. Məlum oldu ki, yaxın qohumu sayəsində nazirlikdə bioloji müxtəliflik kimi sahəyə gətirilən Firuddin müəllim ixstisasca "sosioloq" olub, hazırda çalışdığı sahədən tamamilə anlayışı olmamaqla yanaşı, dövlət qulluğunda heç bir təcrübəsi olmadan, DİM-in çoxsaylı iradlarına məhəl qoyulmadan "Dövlət Qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə zidd şəkildə bu günədək həmin vəzifəni qanunsuz tutur. Görünür, bu məsələdə yuxarıda qeyd edilən "yaxın qohumu"nun sehrli əli və ya maddi dəstəyi əsas faktordur.

Həmçinin, daxil olan informasiyalarda Firuddin Əliyevin son illərdə Milli Park ərazilərinin qanunsuz zəbti, icarəyə verilməsi, layihə pullarının göyə sovrulması, büdcə vəsaitinin tenderlərdə talanması və balıq ovlama biletlərinin rüşvət müqabilində verilməsi ilə bütün respublikada qısa müddətdə ad çıxardığı da aydın olur. Nazirlikdəki yaxın mənbələrdən verilən məlumata görə, heç də təsadüf deyil ki, aparılmış audit nəticələri onun qanunsuz əməllərini bir daha sübut edib və aylardır nazir Muxtar Babayevin qınaq və danlaq obyektinə çevrilməsinə səbəb olub.

Bəs, hörmətli Muxtar müəllimin bu cür yararsız kadrdan ikiəlli yapışaraq, sadəcə, gündəlik danlamaqla bu sahəni risk altında qoymasına səbəb nədir? Şübhəsiz, bu sualın cavabı da yenə o "yaxın qohum" və ya deyilənə görə, "qaynata faktoru" ilə izah edilir, ağlımıza bundan başqa bir şey də gəlmir.

**Hazırladı: KƏNAN**

***P.S. Mövzu ilə bağlı araşdırmamız davam edəcək.***

# Özünü axtaran adam

Bir gün Diasfen günün günorta çağı əlində çıraq bazarda qələbəliyin içində gəzirmiş. Onu görənlər soruşublar ki, nə axtarırsan? Deyib, "adam axtarıram".



Sərdar CƏLALOĞLU

Məncə, kamillik yoluna düşən hər bir adamın ilk işi məhz günün gunorta çağı əlində çıraq özü özünü axtarmaq olmalıdır. Bu çıraq onun istedadından başqa bir şey olmamalıdır. Yəni hər bir insan əslində öz istedadına uyğun yaşamaqla, özü özünü axtarıb tapmış olur.

Rasim Qaraca mənə bağışladığı "Zülmətdə alatoran" adlı avtobioqrafik romanına məhz özü özünü axtarmağa cəhd etməsi ilə başlayır.

Roman haqqında yazmamışdan öncə, adı ilə bağlı bəzi fikirlərimi bölüşmək istəyirəm. Adətən, aydınlıqla qaranlığın bir-birinə qarışdığı vaxta alatoranlıq deyirlər. Buna "əsr vaxtı" da deyilir. Təbiətdə olan alatoranlığa uyğun insan şüurunda da alatoranlıq olur. Şüurda alatoranlıq insanın həqiqəti alayarımçıq dərk etməsi kimi meydana çıxır.

Qeyd edim ki, Qaraca yeni nəsil Azərbaycan ədəbiyyatının özünəməxsus, mən deyərdim, "qəribə" istedadlı təmsilçilərindəndir. Müstəqillik əldə etdikdən sonra meydana çıxan bir çox cərəyanların Azərbaycanda çətin qəbul olunduğunu, əhalinin gündəlik qayğılara başı qarışdığını və bədii zövqün yerini bayağı zövq tuduğunu, mədəniyyət istehlakı böhranı yaşandığını nəzərə alib, nə qədər çətinliklərlə uzləşdiyini hamımız bilirik. Oxucu qıtlığı, sovet ənənlərinin ətalətinin boğucu təsiri, inzibati təzyiqlər, sosial-iqtisadi təsirlər yeni ədəbiyyatın problemlərinin az bir qismini təşkil edir. Bu şəraitdə Qaraca və dostları ənənəvi sovet ədəbiyyatina qarşı yeni bir ədəbi hərəkat başlatmış və yaradıcı azadlıq istəyən gəncləri "Alotoran" jurnalının ətrafna toplayaraq, cox ciddi mübarizəyə qalxmışdı.

Mən bu cərəyanları izləməyi özümə borc bilmişəm, ən azından belə hesab edirəm ki, mədəniyyət siyasi düşüncənin anasıdır. Mədəni olmayan heç bir insan siyasi düşüncəyə malik ola bilməz. Bəlkə də məhz buna görədir ki, fundamental siyasi dəyişikliklərə hamilə olan istənilən ölkədə hələ inqilabçıların ayaq səsləri eşidilmədiyi bir vaxtda ədəbiyyatda, incəsənətdə, bir sözlə mədəni həyatın butun sahələrində mövcud dəyərlər sistemini dağıtmağa başlayan yaradıcı şəxslərin hayqırtıları eşidilməyə başlayır.

Qaraca özünün yaradıcılığında ədəbiyyatı seçməsini bu formanın "ucuz olması" ilə izah edir... Əslində, ədəbiyyat incəsənət əsərləri icərisində geniş və sürətli yayılma imkanına, mobil olmasına və yaradıcılıq sahəsinin genişliyinə görə fərqlənir. Bəzən bir yazıçı öz əsərində sözlə minlərlə rəsm əsəri üçün əsas olacaq təsvirlər, şairlər öz şerləri ilə neçə-neçə musiqi əsərinin yaradılmasına stimul verir.

Qaraca bu əsərində çox mühüm bir sual verir: "Bizim arzularımızın motivləri nələrdir? Hər zaman ülvi motivlərdirmi, yoxsa bizim eqoizmimizdən və ya hərisliyimizdən qaynaqlanır?" Əslində, bu sual özünü axtaran hər bir adamın qarsısında durur və hamı öz həyat yolu ilə bu suala cavab vermiş olur. İnsan ikili valıqdır. Eqoizm onun heyvani təbiətindən, ulvilik ruhi tərəfindən qaynaqlanır. İnsanda eqoizmlə ulvilik vəhdət təşkil edir və hər bir insan eqoist ola biləcəyi qədər, ülvi və ya alturist də ola bilər. Bəs insanın bu yollardan hansını seçməsi nə ilə bağlıdır?! Başqa sözlə, fəaliyyətimizin motivizasiyası nəyin təsirindən qaynaqlanır? Bura bir çox sual da əlavə edə bilərik, amma bu iki sual da kifayətdir ki, hər bir şüurlu insanın özünü axtararkən bir seçim qarşısında olduğu aydın olsun. Heyvani təbiətin diqtəsi ilə eqoistik maraqlara doğru, ya da ruhunun diqtə etdirdiyi altruizmə və Qaracanın dili ilə desək, ülviliyə doğru getsin.

Bəs insan bu yollardan hər hansısını nə üçün seçir? Məncə, insanın seçimi qarşısına çıxan çətinliyi dəf etmək gücü ilə bağlıdır. İnsan ruhu da işıq kimidir. O da işıq qanunlarina tabe olur, yəni ya çətinliyi dəf edib keçir, ya çətinlik tərəfindən udulur, ya da çətinlik onu geriyə çıxış nöqtəsinə qaytarır. Gundəlik qayğıların yaratdığı sədləri aşa bilməyən kimsə altruist arzularla yaşaya və yarada bilməz. Bəzən bu sədlərin dağılması quruluşun dağılması ilə asanlaşır ki, Qaraca da məhz sovet hökuməti dövründə ədəbiyyata yol tapmağın mümkün olmadığını, amma quruluşun dağılması ilə işıq ucu gördüyünü etraf edir.

Bəli, bizim siyasi azadlıqlarımız ilk növbədə bizim yaradıcılıq azadlığımıza yol açır. Milli azadlıq fərdi azadlıqsız boş söz yığınağıdır. Buradan da yaradıcılıqda seçimin siyasi və mənəvi azadlıqla bağlı olduğu aydın olur.

Qəzəbin nəticəsi insanin gücü ilə bağlıdır. Buna görə, zərif və zəif adamların qəzəbi insanlarda gülünc və ya yazıqlıq hissi yaradır. Uşağın qəzəbinə yaşlıların verdiyi reaksiya da bununla bağlıdır. Uşaq qəzəbi komik tamaşalar kimi böyuklərdə qəhqəhə yaradır. Eləcə də uşaq kimi ülvi olanların da qəlbi döyənək olmuşlarda gülüş yaratmaqdan başqa bir şeyə yaramır.




Özünü tapan hər bir adamı onun özü kimi dəqiq tanıyan başqa bir insan ola bilməz. İnsanın özünü tanıması muhum məsələdir. O qədər muhum məsələdir ki, antik dövrdə Afinadakı "Delfa" məbədinin girəcəyində yazılmışdır: "Ey insan, özünü tani, özünü tanısan dünyanı və Allahları da tanıya bilərsən".

Qaraca özünü davakar kimi tanıtmır. Buna görə də onun qəzəbi qarşı tərəfdə adekvat reaksiya yaratmır. Yaradıcı adamın kini, qəzəbi ancaq onun yaradıcılığına və şəxsiyyətinə mənfi təsir edə bilər, yəni sirkə kimi nə qədər tünd olsa öz qabını çatladar.

Qaracanın da düşdüyü qaranlıq ictimai mühit onu mütləq inkarçıya çevirir. Artıq Qaraca Azərbaycan ədəbiyyatında yaxşı heç nə görmür, ən ciddisi isə qəzəb və kin ona yaxşıları görməyə imkan vermir. Amma sən gözünü yummaqla dünya yox olmadığı kimi, ədalətsiz olaraq yaxşıları inkar etməklə onlar da yox olmur. Sadəcə, bununla sən sırasında ola bilmirsən. Bu, ölkəsindən və fəaliyyətindən asılı olmayaraq, hər bir mütləq inkarçı üçün keçərlidir.

Qaraca özünü tapib, indi o, özünü başqalarına tanıtmaq istəyir. Bunun üçün ona vasitə lazımdır. Ədəbiyyatçının populyarlaşması çap olunmaqdan keçir. Qaraca çap səddini az qala Çin səddi kimi görur və bu səddi aşmağın çətinlikləri qarşısında az qalır ki, təslim olsun.

Hər bir insan öz həyatının səyyahıdır. Bütün çətinliklərinə baxmayaraq, həyat yolunu özü üçün açmalıdır. Bir insanın həyat yolu onun gəncliyində salınır. Yaşlansa da, insan ətalət üzrə o yolla gedir. Qaraca da məhz gənclik enerjisi ilə özünü usyankar təbiəti ilə ədəbi yaradıcılıqda özünə yol açmağa cəhd edir. İnsanın mənəvi üsyanı ondan böyük güc, cəsarət və enerji tələb edir. Bu üçü birlikdə yalnız gənclik dövründə təzahür edir. Elə bizim Qaraca da öz gənclik enerjisini vulkan kimi püskürdərək, yaradıcılığında inqilabi dəyişiklik edə bilir. Musa Yaqubun bir gözəl sözü var, "tikanları yox, çiçəkləri qoruyun, zatən tikanlar özləri özlərini qoruya bilir". Yaradıcı insan çiçək kimidir. Onun qorunmağa ehtiyacı var. Vaxtında onu qorumasan, qayğı göstərməsən, o, asanlıqla solub xəzana çevrilir. Qaraca yaşadığı bu mühitdə belə bir qayğını görmədiyindən xeyli məyus olur. Qaracanı dəhşətə salan Azərbaycandakı ədəbi mafiyadir. Çap olunmaq və ədəbi mühütdə yer tutmaq bu mafiyanın bayrağı altına keçməyi tələb edir. Qaraca və onun dostları isə öz bayraqları altında döyüşmək istəyir. Bu bayraq rolunu onlar üçün "Alatoran"jurnalı oynadı.

"Alatoran" jurnalı, əslində, cəmiyyətə yeni ədəbiyyat numunələri təqdim edirdi. Amma innovasiya xəstələri və ya muhafizəkarlar bu jurnalı az qala Azərbaycan ədəbiyyatına xəyanət etməkdə ittiham edirdi. Qaraca özü başqalarının çap üzərində səlahiyyət əldə etdiyi andan vaxtilə özünün niyə çap edilmədiyini başa düşməyə başlayır. "Musiqini pulu verən sifariş edir". Başqa sözlə, elə bu Molla Nəsrəddinin "sən çaldın" lətifəsi ilə eyni mənalıdır, amma burada bir ciddilik var: pulunu ver, işini gör.

Dahiləri yetişdirən mühit adətən nadanlardan təşkil olunur... Böyük ədəbi əsərlər də zövqsüz əsərlərin kütləvi hal almasından sonra meydana çıxır. Peyin çox olan yerdə məhsul bol olur.

Cəmiyyət özünə xas yaradıcı şəxsiyyət istəyir və yalnız istəməklə qalmır, onu özü yetişdirir. Durğunluq dövrü durğunluq ədəbiyyatını yaradıb. Durğunluq ədəbiyyatı nə deməkdir? Ənənə üzrə sifarişlə təqvimə uyğun yaradıcılıq durğunluq ədəbiyyatının əsas əlamətləridir. Qaraca durğunluq dövründə yaşamış və bu dövrün yaradıcı insandan nə tələb etdiyini anlamışdı. Əsl istedadların durğunluq ədəbiyyatında nə yeri, nə rolu ola bilər. Ona görə, bu dövr böyük şəxsiyyət və yaradıcı insanlarla kasıbdır. Keçid dövrləri təzə ilə kohnənin toqquşduğu dövrlərdir. Bəzən köhnə, bəzən təzə qalib gəlir. Köhnənin qələbəsi cəmiyyəti geriyə, ən yaxşı halda durğunluğa, təzənin qələbəsi gələcəyə aparır. Təzənin köhnəyə qalib gəlməsi "yaradıcı dağıdıcılıq" kimi meydana çıxır. Ətalətçilər üçün yaradıcı dağıdıcılıq böyük faciədir, amma yenilikçilər üçün bu, bir vəzifə və nailiyyətdir.

Qaraca ədəbiyyatda köhnə ilə yeninin mübarizəsində dostları ilə yenilik cəbhəsini təşkil edir. Bu mübarizədə nə məğlub, nə də qalibdirlər. Bir çoxları kompromis yolu tutur, bəziləri cəbhəsini dəyişir, bəziləri isə inad edir və irəliyə, gələcəyə doğru dartınır. Qaraca sonunculardandır. Onun təslim olmaq fikri yoxdur.

*(Ardı var)*



Məğrur Bədəlsoy

# AZAL, VKRH hüquqi ünvanlarını dəyişiblər?

## Məhkəmələrin məhkəmə müdafiəsi hüququna "ərazi aidiyyatı" qadağası

**Səbinə Nuriyeva VKRH-nın Nərimanov məhkəməsinə, Rəna Qafarova AZAL-ın Səbailə aid olmadığına qərar verib (?)**

Vəkillər Kollegiyasının Rəyasət Heyətinin (VKRH) 15.11.2024 tarixli, 2(103)-3974/24 saylı qərardadla üzərinə qoyulan 1-ci dərəcəli Qarabağ əlilinə dövlət hesabına vəkil ayrılması öhdəliyini 18 gündür icra etməməsindən aidiyyatı üzrə Nərimanov məhkəməsinə verilən iddia qəfildən geri qaytarılıb. Hakim Səbinə Nuriyeva 5 günlük müddət bitəndən sonra (ərizə 27.11.2024-cü ildə kabinetdən daxil olub, dekabrın 2-də geri qaytarılması haqqında bilgi verilib.) birdən-birə necə belə absurda imza atıb? Axı 8internet resurslarında açıq göstərilir ki, Vəkillər Kollegiyası Rəyasət Heyətinin hüquqi ünvanı Ceyhun Hacıbəyli, 100 Nərimanov rayonundadır! Hansı əsasla iş ərazi aidiyyatının pozulmasına görə geri qaytarılıb? Bəlkə Bakı Apellyasiya Məhkəməsinin qərardadının icrası VK-nın Rəyasət Heyətinə tapşırılmayıb? Yox, 15.11.2024-cü il tarixli, 2(103)-3974/24 saylı qərardadda imperativ formada yazılıb:" Qərardadın icrası Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinə həvalə edilsin".

18 gündür qüvvəyə minən və icrasından imtina edildiyinə görə məhkəmə qaydasında tələb edilən vəkil ayrılmasına cavabdeh-borclu VKRH məhkəməyə basqı yapmaqla da qadağa qoyur? Yəqin Ədliyyə Nazirliyi VKRH-nın, Məhkəmə Hüquq Şurası məhkəmənin (hakim Səbinə Nuriyeva) qeyri-prosessual özbaşınalığına qiymət verməkdə çətinlik çəkməz. Hələliksə şəxsi kabinetdən hakimə etiraz təqdim edilib. Absurdur, VKRH hüquqi ünvanını Nərimanov rayonu, Ceyhun Hacıbəyli, 100 kimi göstərir, məhkəmə "e-məhkəmə" sistemindən ünvanın başqa olduğunu müəyyən edir? Axı mülki işlərdə məhkəmənin sübut toplamaq hüququ yoxdur! Di gəl, Səbail məhkəməsinin hakimi Mədinə Bağırova şəbəkə cinayəti ilə bağlantıya qadağa qoyan mobil operatorun ünvanını Dövlət Vergi Xidmətinin reyestrindən müəyyən etmişdi..

Səbaildən söz düşmüşkən, Soçi- Bakı reysinə dələduzluqla buraxılmayan 1-ci dərəcəli Qarabağ qazisi ailəsinin təyinat yeri üzrə daşıyıcıya ( AZAL QSC) iddiasını Səbail məhkəməsinin hakimi Rəna Qafarova geri qaytarıb ki, cavabdeh AZAL QSC-nin hüquqi ünvanı Səbail rayonu deyil. Hələ hakim geriqaytarma qərardadını kabinetdə yerləşdirmədiyindən ünvanı necə "müəyyən etməsi" bilinmir. Amma "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti Prezidentin 16.04.2008 tarixli, 2761 N:-li Sərəncamı ilə yaradılıb və NK-nın 30.04.2008 tarixli, 105 N:-li Qərarı ilə təsdiq olunan nizamnaməsinin 1.5 bəndində aktlaşdırılıb: "Cəmiyyətin hüquqi ünvanı: AZƏRBAYCAN RESPUBLİKASI, BAKI ŞƏHƏRİ, AZADLIQ PROSPEKTİ, 11" Bu ünvanın Nizami küçəsi ilə kəsişmədə olması və Səbail rayonuna aid olması isə internet resurslarından (da!) bəllidir.

Məhkəmələrin əsas insan hüquq və azadlıqlarından olan məhkəmə təminatı hüququna "ərazi aidiyyatı" qadağası qoyması üzə çıxır. Bu isə yolverilməzdir. Ölkənin baş qanununda- Konstitusiyada belə yazılıb. Görək, şikayət edilən Ali Məhkəmə, Məhkəmə Hüquq Şurası məhkəmənin hüquqa qadağa qoyan yox, hüquq qoruyan orqan olduğunu məhkəmələrə anlada biləcək?

# Qaynar ölkə

## Səni eşitmək istəməyənə söz demək, kora güzgü vermək kimidir - «sağ ol» deməz...



Eldəniz QULİYEV

**Qəribə zamanda yaşayırıq... Dünya qaynar qazana çevrilib, bircə himə bənddi ki, pıqqa-pıqla qaynasın.**

Dünən o qazanın altına, odun yerinə qloballaşma, tolerantlaşma qoyurdular, bu gün isə hərbiləşmə, qütbləşmə dürtürlər. Bu gedişlə, sabah qazanı qızışma və atomlaşmayla, bir az da pırpızlaşmayla qaynadacaqlar!..

Allah özü saxlasın!

Bunları sözgəlişi dedim, ehmalca sürüşüb öz doğma-əziz məmləkətimizə qayıdaq... Necə olsa, "Vətən viranə qalsa da, Vəfalıdır, vətəndir".

Bu gün heç kim ölkədə vətəndaş qarşıdurması arzulamır. Çünki hamı dərk edir ki, ölkəmiz dünyanın bapbalaca bir parçasıdı və bu bapbalaca vətəndə XAOS yaratmaq yepyekə bəla gətirər. Ağlı başında olan hər kəs, əlbəttə ki, qan-qadadan mümkün qədər kənar olmağa çalışır. Kaş ki, siyasi iradə qılıcını qınında pasladan "yuxarı başdakılar" da dərk edəydilər bunu!..

Bu gün dünyada, ələlxüsus böyür-başımızdakı regionlarda vaqe olan, əsasən də, hikkə və buynuz qaşınmalarından yaranan mənasız-mənasız toqquşmalar, səfeh-səfeh münaqişə və müharibə ocaqları, gərək ki, bizləri son dərəcə məsuliyyətli olmağa, özümüzü yığışdırmağa, "qartımızı-qurtumuzu" düzəltməyə sövq eləsin. Yəni mövcud geosiyasi olayların-oyunların "urusca" olduğunu qətiyyən gözardı eləmək olmaz!..

Kim deyər: hazırkı zaman kəsiyində Azərbaycan hakimiyyəti çalışıb deyilənlərin fərqində olmalı, daxili, ən çox da xarici siyasət strategiyasında düşünülmüş addımlar atmalıdlr, ya yox? Əlbəttə, atmalıdır. Həm xarici, həm də daxili siyasətdə ölçülü-biçili mövqe nümayiş etdirmək, hava, su qədər vacibdir, ən əsası isə, ölkə içində köklü-köməcli islahatlara başlanmalıdır, özü də hər sahədə və təcili!

Hakimiyyət ökədə əmin-amanlığın bərqərarında, habelə vətəndaş həmrəyliyi və milli barış məsələlərində maraqlı olmalıdır; daha absurd bəhanələrlə camaatın işığının, təbii qazın, suyun, yanacağı, müfiq olaraq, bütün istehlak-tələbat mallarının və s. və i.a.-ın qiymətlərinin artmasında yox. İkinin üstünə iki gələndə beş eləmir ki? Zəhmət çəkib həll eləsinlər də!

Şanlı hökumətimiz məmləkəti külli-aləmdə zəlil eləyən və ilin dörd fəsli açıq olan "siyasi məhbusların ov mövsümü"-nü ləğv eləməli, qapatmalı, bağlamalıdı. Ölkənin quru yollarını isə, əksinə, taybatay açmalıdır. Günahsız insanların təqib, təhdid və təhqir olunması prosesinə nəhayət ki, nöqtədən, nidadan qoyub dayandırmalıdlr. Əks-təqdirdə... Bəli, əks-təqdirdə başımıza sanksiya qalsa, ilk növbədə, başımıza dəyən əsassız, arqumentsiz və insafsız qiymət artımları və gəmirici cərimə qapazlarına "stop!" deyib durdurardım. Daha sonra, kələkbaz məmurların özbaşınalığına elə bir badalaq vurardım ki, hamısı, türkün sözü, kəllə-mayallaq olardılar. Ölkə konstitusiyasına, demokratik açılıma - ifadə azadlığına və digər insan hüquq və azadlıqlarına hörmətlə, izzətlə yanaşmağı, qanunun aliliyinin qorunmasını "göz bəbəyi kimi qorumaq" məsəliylə calaqlayıb eyniləşdirərdim. Bundan sonra keçiriləcək bütün seçkiləri taleyüklü sayar və onların tam şəffaf, lap ədalətli, çox abırlı və tərtəmiz keçirilməsinə start verərdim.



yağışı yağacaq, qadağa, tabu külü töküləcək...

Bu bir faktdır ki, (və bunu unudan, daldan topuğa daş atanların vəziyyətinə düşə bilər) dünya ölkələrində zor gücünə edilən bütün çevrilişlər və inqilablar (qanlı, qansız - dəxli yoxdur), adidən də adi sosial tələblərdən başlayır... yəni, "qarnım acdır, bir tikə çörəyə möhtacam", "əynimə paltar, ayağıma ayaqqabı, başıma papaq ala bilmirəm..." - bu və bu kimi tələblər qulaq ardına vurulanda, işlər şuluğlaşır və təbii şəkildə önə sərt siyasi tələblər keçir. Siyasi tələblərin repressiya ilə qarşılanması isə, qarşısıalınmaz və proqnozlaşdırılmayan XAOSa rəvac verir... Və elə bu məqamdaca, "Kərəmi ağlamaq tutur", sonra ara qarışır, məzssəb itir, daha sora isə, it öz yiyəsini tanımır...

Bə nə etməli? Zalım oğlu Çernişevski bəşəriyyətin alnına elə əbədi bir sual mismarlayıb ki...cavabı hələ də "Əhməd haradadır?"- a "fora" verir...

Məncə, daha doğrusu, mənə

Əslində, bütün bu sadalanan və sadalanmayan ağrı-acılara əncam çəkmək mənim, sənin, bizim yox, hökumətin işi, məhz hökumətin vəzifə borcudur...

Borcu isə, qaytarmaq lazımdı, illahda bu borc xalqa ola!..

Başımızın, başımızla birgə gün-güzəranımızın da sağ-salamat olmasını istəyiriksə, gərək... gərnəşək. Gərnəşək və...birləşək. Başqa çarəmiz yoxdu. Çünki vaxt gözləmir, vaxt dayanmır...Vaxt gedir, vaxt axır...

Sözün qısası, əlqərəz, üstəlik, müxtəsəri, tələsmək lazımdı. Yəni ellikcə anlamalıyıq ki, artlq bu gün, "tələsən tərsə düşər" məsəli tam tərsinə işləyir. Yəni məhz tərsə düşməmək üçün tələsmək lazımdı...

çünki dünya fırlanır. Yaman fırlanır!..

çünki dünya qımışa-qımışa, qızışa-qızışa, hətta pırpızlaşa-pırpızlaşa pıqqıldayır...

çünki dünya qaynar qazana dönüb pıqqa-pıqla qaynamaq həddinə çatıb!..

Son vaxtlar “şəxsiyyət pozğunluğu” diaqnozu qoyulan bir çox qazilər tərəfindən redaksiyamıza çoxsaylı şikayətlər daxil olur. Şübhəsiz, bu diaqnozun altında Psixi Sağlamlıq Mərkəzinin direktoru, professor Fuad İsmayılovun imzası “yatır”. Hansı ki, Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin həkim-ekspertləri professor Fuad İsmayılovun qazilərə qoyduğu bu diaqnozun düzgün olmadığı qənaətinə gəliblər. Bu səbəbdən də onların heç birinə əlillik dərəcəsi verilmir. Ən maraqlısı isə odur ki, redaksiyamıza müraciət edən qazilərin əksəriyyətinin diaqnozu eynidir. Bütün bunlar onu deməyə əsas verir ki, ya Fuad İsmayılov xəstələrə düzgün diaqnoz qoya bilmir, ya da onun diaqnozunu Agentliyinin həkim-ekspertləri qəbul etmirlər.



## Həkim-psixiatr Abdulla Şıxlinski: “Bunu xəstəlik kimi təqdim etmək lazımdır, çünki şəxsiyyət pozğunluğu çox vaxt ağırlaşır”

# Şəxsiyyət pozğunluğu nədir?

## Yaxud bu cür diaqnoz qoyulan xəstələr nə qədər təhlükəlidirlər?

Bir çoxlarımıza bəlli olduğu kimi, bu diaqnoz ağır xəstəliyin xəbərçisidir. Şəxsiyyət pozğunluğu insanın psixoloji vəziyyətinin yerində olmaması deməkdir. Bir çox mənbələrdən əldə etdiyimiz məlumata görə, bu xəstəlik özünü ən ağır formada göstərə bilir. O səbəbdən də, bu diaqnoz qoyulan xəstələr hər gün dərman qəbul etməlidirlər. Hətta bir çox xəstələr psixiatriya xəstəxanalarında yatılı müalicə alırlar. Çünki onların qəbul etdikləri dərmanlar çox ağır təsirə malikdir.

Ümumiyyətlə, şəxsiyyət pozğunluğu diaqnozu qoyulan insanlar tərk edilməməyə çalışırlar. Onlar qeyri-sabit və gərgin münasibətlər qururlar, impulsiv davranışlar göstərirlər. Bundan əlavə, bəzi hallarda onlar özlərinə zərər verir, hətta intihara da meyl edirlər. Bu insanlar tənqid, rədd edilmə və ya bəyənilməmə qorxusu səbəbiylə şəxsiyyətlərarası fəaliyyətlərdən çəkinirlər. Yaxın münasibətlərə girməkdən, yeni insanlarla tanış olmaqdan və özlərini digərlərindən aşağı hiss etməkdən qorxurlar. Bundan əlavə, fərdi risk etməkdən və yeni fəaliyyətlərə qarışmaqdan da ehtiyat edirlər. Ona görə, onların ətrafındakı insanların üzərinə yük çox düşür. Belə ki, onlar daim belə insanları nəzarətdə saxlamalı, stresdən, əsəbdən uzaq saxlamağı bacarmalıdırlar. Əks halda, ağır fəsadlarla üzləşə bilərlər.

Yuxarıda da qeyd etdiyimiz kimi, İkinci Qarabağ Müharibəsi iştirakçılarının təxminən 80 faizinə bu diaqnoz qoyulub. Lakin bir müddət keçdikdən sonra bu insanlara verilən müavinətlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən kəsilib. Çünki yenidən yoxlanışa gedən qazilərin əksəriyyətinin sağaldığı bildirilir. Halbuki onların sağalıb-sağalmadıqları ən çox ailədəki və cəmiyyətdəki davranışlarına görə dəyərləndirilməlidir. Heç də təsadüf deyil ki, bəzi hallarda “sağalmış” deyilən qazi özünə od vurub yandırır, damarlarını kəsir, yaxın qonşusuna, qohumuna ziyan vurur və sair.

Yeri gəlmişkən, nazirlik qazilərin müavinətini kəssə də, onlara sağlamlıq kağızı vermir. Belə insanları isə heç bir qurum işə götürmür. Necə deyərlər, heç kim bir “dəli”, yaxud da “psix”lə işləmək istəmir. Nə qədər acı olsa da, həqiqət budur. Odur ki, məsələ ilə bağlı həkim-psixiatr Abdulla Şıxlinski ilə həmsöhbət olduq.

“Ümumiyyətlə, “şəxsiyyət pozğunluğu” dedikdə biz psixopatiya vəziyyətini nəzərdə tuturuq. Əvvəllər buna “psixopatiya” deyirdilər. Beynəlxalq xəstəliklər cədvəli dəyişdikdən sonra bütün dünyada onun adını dəyişib, “şəxsiyyət pozğunluğu” qoyuldular. Əslində isə, bu xəstəliyin köhnə adı psixopatiyadır”, - deyən A.Şıxlinski bildirdi ki, şəxsiyyət pozğunluğunun bir çox növü vardır:

“Birinci növü əsl şəxsiyyət pozğunluğudur. Bu, insanlarda anadangəlmə olur. El arasında bu insanlara belə də deyilir: “Əvvəldən belə idi, uşaqlıqdan xasiyyəti pisdir, tərsdir, hara gedir heç kəslə yola getmir” və sair. Əslində, şəxsiyyət pozğunluğu olmayan adam demək olar ki, yoxdur. Bunu nəzərə alaraq, təklif olunur ki, şəxsiyyət pozğunluğu xəstəlik kimi dəyərləndirilməsin. Amma bunu xəstəlik kimi təqdim etmək lazımdır, çünki şəxsiyyət pozğunluğu çox vaxt ağırlaşır. Buna da “dekompensasiya” deyilir. Xəstə bu vəziyyətə gəlib çıxanda şəxsiyyət pozğunluğu elə xəstəlik formasında olur. Mütləq müalicə olunmalıdır, hətta xəstəxanada yatmalıdır”.

Həkim-psixiatrın sözlərinə görə, şəxsiyyət pozğunluğunun müəyyən halları var ki, onlar çox təhlükəli olur: “Məsələn, islah-əmək müəssisələrində, həbsxanalarda adam öldürmə, zorlama maddəsi ilə, eləcə də digər ağır cinayətlər törətdikləri üçün yatan insanların 80-85 faizi şəxsiyyət pozğunluğu olanlardır. Bu adamlarda şəxsiyyət pozğunluğu artıq dekompensasiya verib. Bu səbəbdən, cinayəti edib, həbsxanaya düşüblər. Şəxsiyyət pozğunluğu dekompensasiya vəziyyətinə düşəndə, yəni hədəqəsindən çıxanda, artıq biz ona xəstəlik kimi baxırıq və xəstəlik kimi də müalicə edirik. Bundan əlavə, ümumiyyətlə, bu, əvvəllər xəstəlik kimi dəyərləndirilirdi. Elə indinin özündə də ayrı-ayrı psixiatrlar buna xəstəlik kimi baxırlar. Mənim özüm də bunu xəstəlik kimi qiymətləndirirəm. Biz öz təcrübəmizdən bilirik ki, onu xəstəlik kimi təqdim etməmək tibbi məna daşımır, siyasi bir məna daşıyır.

Bu, Qərb ölkələrində də xəstəlik vəziyyəti kimi qəbul olunub. Bu səbəbdən, bizdə də bunu xəstəlik kimi yox, adi vəziyyət kimi qəbul etdirmək istəyirlər. Qeyd edim ki, beynəlxalq xəstəlik cədvəli Amerika, İngiltərə və Ümümdünya Səhiyyə Təşkilatının nəzarətindədir. Həm deyirlər xəstəlik deyil, həm də xəstəliklər cədvəlinə salıblar. Bu, onu göstərir ki, xəstəliklər cədvəlinin tərtibatının özündə Qərb dünyasının siyasi motivləri dayanır.

Sovet İttifaqı dönəmində bizim öz xəstəlik cədvəlimiz var idi. O tam düzgün formalaşdırılmış, məntiqə uyğun bir cədvəli idi. Həkimlər xəstəliklərin sistematikasından istifadə edirdi və o daha başa düşülən, daha sadə və daha münasib bir cədvəl idi. Amma indi beynəlxalq xəstəliklər cədvəlindən istifadə edirlər”.

Abdulla Şıxlinski deyir ki, Qərbin təşəbbüsü ilə yaradılan xəstəlik cədvəli təkmil deyil: “Bilirsiniz ki, mən uzun müddət Moskvada işləmişəm. Oradakı bütün psixiatrlar deyirdi ki, indiki xəstəlik cədvəli, yəni ABŞ və İngiltərənin, ümumiyyətlə Qərb dünyasının təşəbbüsü ilə yaradılmış xəstəlik cədvəli təkmil deyil”.

Həkim-psixiatr qeyd etdi ki, bəzən şəxsiyyət pozğunluğu daha ağır fəsadlar verir: “Bu xəstəliyin yüngül formaları da olur, biz onu heç nəzərə almırıq. Amma, dediyim kimi, bunun çox ağır formaları da var. Həmin ağır formalar zamanı insan sosial təhlükəli olur, ağır cinayətlər edir, ətrafdakılar üçün müəyyən təhlükə yaradırlar. Məhz buna görə də “şəxsiyyət pozğunluğu” deyəndə biz patoloji vəziyyəti nəzərdə tuturuq. Anadangəlmə şəxsiyyət pozğunluğudursa, o zaman insan heç vaxt dəyişmir, necə doğulubsa, ömrünün axırına qədərdə də elə yaşayır.

Şəxsiyyət pozğunluğunun ikinci növü isə qazanılma şəxsiyyət pozğunluğudur. Bu hal uzun müddət hərbi əməliyyatlarda iştirak edən adamlarda, yəni psixi inkişafına əngəl törədən müəyyən situasiyalara düşən şəxslərdə aşkar olunur. Misal üçün, bir qəza baş verir, sürücü bütün yaxınlarını itirir və böyük stress yaşayır. Bu zaman da şəxsiyyət pozğunluğu inkişaf edir. Zorlanmış qadınlarda da bu xəstəlik baş verir. Müxtəlif insanlarda müxtəlif həyat situasiyası zamanı, tutaq ki, kişi həyat yoldaşının xəyanətini bilirsə, bu zaman da həmin xəstəlik oyanır. Bunun əksi olan halda qadında da bu proses baş verə bilər. Bu hallarda həmin xəstəliyə “qazanılma şəxsiyyət pozğunluğu” deyilir.

Qazanılma şəxsiyyət pozğunluğu müəyyən psixo-emosional stress nəticəsində inkişaf edə bilər. İstənilən həyatın qeyri-münasib situasiyalarında, qeyri-münasib vəziyyətlərində insanda şəxsiyyət pozğunluğu inkişaf edə bilər. Yəni hər bir insanda bir şəxsiyyət pozğunluğu inkişaf edir. Birində paranoyal şəxsiyyət pozğunluğu, birində şizoid, birində isterik növü və sair inkişaf edir. İnsanın beyin quruluşundan, psixo tipindən asılı olaraq, hər bir vəziyyətdə hər bir ekstremal situasiyada şəxsiyyət pozğunluğunun müxtəlif növləri inkişaf edə bilər. Bu xəstəliyi müalicəsiz buraxmaq olmaz. İnsan müalicəsiz qalarsa, xəstəlik şəxsiyyətin deformasiya həddinə gətirib çıxarır. Bu isə çox ağır bir vəziyyətdir. Belə adamlara kömək etmək də çox çətin olur. Bu kimi adamlar cəmiyyət üçün yarasız olur. Üstəlik, belə xəstələr mühitə alışa bilmirlər, heç yerdə işləyə bilmirlər. Bir sözlə, hər an problem içində olurlar. Onlar nəqliyyatdan istifadə edərkən də özlərindən çıxa bilərlər. Yəni heç də belə insanlara normal insan kimi baxmaq olmaz.

Paranoyal psixopatiya xəstələri daima kimlərdənsə şikayətçi olurlar. Axırda məhkəmə bunları psixiatr ekspertizasına göndərir ki, onda nəsə problem var, bu qədər şikayət yazmaq olmaz. Aydın olur ki, onlar cəmiyyət üçün müəyyən problemlər yaradırlar.

Əlbəttə, şəxsiyyət pozğunluğunun müəyyən formaları var ki, onların özləri müəyyən təcavüzlərə, insanların qəddar münasibətlərinə məruz qalırlar. Onlar bu hərəkətlərə cavab olaraq heç nə edə bilmirlər. El arasınada belə adamlara “yazıq”da deyilir. Amma belə adamlar bəzən elə ciddi hərəkətlər edə bilərlər ki, heç onlara “yazıq adam” demək olmaz. Ümumiyyətlə, xarakterizə etdikdə isə, bəli, bunlar sakit, yəni astenik tipli şəxsiyyət pozğunluğu olan adamlardır”.

A.Şıxlinski onu da vurğuladı ki, istənilən xəstəlik şəxsiyyət pozğunluğuna gətirib çıxara bilər: “Sizin sualınıza cavab olaraq bildirim ki, Fuad İsmayılovun qoyduğu diaqnoz qanun deyil. Yəni istənilən ekspert rəyi komission qaydada verilməlidir, necə ki, məhkəmə psixiatrik ekspertizasında 3-4 həkim yığılır, bir nəticə yazır. Psixiatriyada ekspert rəylərinin hamısı komission qaydada olmalıdır. Fuad İsmayılov da bu rəyi hansısa quruma göndərirsə, bu ekspert rəyidirsə və bu rəy nəticəsində insana pensiya veriləcəksə, onun cinayət məsələsinə cəlb olunub-olunmaması, hərbi xidmətə gedib-getməməsi həll olunacaqsa, bütün bunların hamısı ekspertiza hallarına aiddir. Ekspertiza da tək bir adam tərəfindən aparıla bilməz. Bir neçə həkimin rəyi nəticəsində ekspert rəyi verilməlidir. Bir adamın ixtiyarı yoxdur ki, o rəyi versin. Qanunvericilikdə açıq-aydın yazılıb ki, hətta həkim sözügedən komissiyanın sədridirsə və komissiyada olan həkimlərdən biri başqa ekspertlərin rəyi ilə narazıdırsa, o, ayrıca öz rəyini verir və həmin həkimin də rəyi nəzərə alınmalıdır. Ekspertiza 3, yaxud da 4 həkimin iştirakı ilə aparılmalıdır və bütün həkimlərin də rəyi nəzərə alınmalıdır.

İndiki zəmanədə hər bir həkimin, elmi dərəcəsindən asılı olmayaraq, öz fikrini açıq deməyə ixtiyarı var. Ekspertizada iştirak edən hər bir həkim öz fikrini açıq-aşkar deyə bilər, buna heç bir qadağa yoxdur.

Nəzərə almaq lazımdır ki, hər bir psixi pozuntusu olan şəxsdə şəxsiyyət pozğunluğu olur. Amma bu o demək deyil ki, “şəxsiyyət pozğunluğu” diaqnozunu ayrıca ora yazmaq lazımdır. Əvvəl əsas diaqnoz yazılmalıdır ki, hansı xəstəlik şəxsiyyət pozğunluğuna gətirib çıxarıb. İlk əvvəl onu qeyd etmək lazımdır.

Şəxsiyyət pozğunluğu ruhi xəstəliyin nəticəsidir, əsas xəstəlik deyil. Şəxsiyyət pozğunluğu istənilən psixi xəstəliyin məntiqi nəticəsidir. Əsas isə səbəbdir.

Onu da qeyd edim ki, şəxsiyyət pozğunluğunu yazanda mütləq onun tipini qeyd etmək lazımdır. Bu xəstəliyin növləri günü-gündən artır”.

**Jalə FAMİLQIZI**

# Azərbaycanda narkomanların sayı azalır, yoxsa artır?

Azərbaycanın 44 günlük Qarabağ savaşından qalib çıxması ilk gündən hər bir ölkə vətəndaşında 30 illik müharibənin bitdiyi qənaəti yaratmışdı. Lakin döyüş meydanında məğlub olan mənfur düşmənlərimiz, eləcə də onların havadarları bu dəfə ölkəmizə qarşı "ikinci savaşı" açdılar. Bu savaş daha çox can almağa, xüsusilə də dövlətimizin gələcəyi olan yeniyetmə və gənclərimizi kütləvi şəkildə məhv etməyə hesablanmışdı. Söhbət "narkotik müharibəsi"ndən gedir. Hansı ki, 2020-ci ildən bu yana, İrandakı molla rejimi başda olmaqla, bir sıra xarici düşmənlərimiz bütün vasitələrlə ölkəmizə narkotik vasitələr soxmağa çalışır. Onlar bununla "bir daşla iki quş" vurmağı hədəfləyiblər. Yəni həm narkotik satışından milyardlarla dollar qazanmağa, həm də yeniyetmə və gənclərimizi sıradan çıxarmağa, onların döyüş ruhunu öldürməyə çalışırlar.



Əlbəttə, düşmənin bu cür məkrli planı diqqətdən kənarda qala bilməzdi. Heç də təsadüfi deyil ki, İkinci Qarabağ Müharibəsindən dərhal sonra Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycanda narkotiklərin qanunsuz dövriyyəsinə və narkomaniyaya qarşı mübarizə yeni müstəviyə daşındı. Nəticədə düşmənin çirkin əməllərinin qarşısının alınması üçün bir çox dövlət qurumları bu mübarizəyə cəlb olundu və belə demək olarsa, ölkədə narkotik mafiyasına qarşı "səfərbərlik elan olundu".

Bütün bunlarla yanaşı, Azərbaycanda artıq sayları qeyri-rəsmi olaraq yüzminlərə çatan narkomanların müalicəsi üçün özəl reabilitasiya mərkəzləri yaranmağa başladı. Təxminən, 150 reabilitasiya mərkəzi hazırda da öz fəaliyyətini davam etdirməkdə, cəmiyyətimizi bu bəladan xilas etmək üçün var gücləri ilə çalışmaqdadırlar. Doğrudur, hələ istənilən nəticəni əldə etmək mümkün olmayıb. Amma görülən işləri də gözardı etmək olmaz.

Məlumat üçün bildirək ki, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə yeni müstəviyə keçdikdən sonra bütün dövlət qurumları, o cümlədən də polis idarələri göstərdikləri fəaliyyətlə bağlı gündəlik açıqlamalar verməyə başladılar. İlk vaxtlar, bəzi hallarda gün ərzində 100 nəfərdən çox narkotacirin qandallanması bu sahədə vəziyyətin kifayət qədər kritik olduğunu göstərməklə yanaşı, tezliklə ölkədə narkotik alverinin qarşısının alınacağına da ümid yaradırdı. Son günlər Daxili İşlər Nazirliyinin (DİN) açıqladığı rəsmi statistikaya istinad etsək, narkotik tacirlərinin "kökünün kəsilməsi" istiqamətində xeyli irəliləyiş əldə olunduğunu deyə bilərik. Çünki hazırda gün ərzində saxlanılanların rəsmi sayı təxminən 20-30 nəfər göstərilir. Amma narkomanların ümumi sayında hələ də ciddi dəyişiklik müşahidə olunmaması bir qədər təzadlı olmaqla yanaşı, bəzi sualları da meydana çıxarır. Ən başlıcası isə odur ki, görəsən, DİN narkomaniyaya qarşı mübarizənin "effekt verdiyini" göstərmək üçün rəqəmləri məqsədli şəkildə azaldır?!

Əlbəttə, biz heç bir qurumun, o cümlədən də DİN-in narkotiklərin qanunsuz dövriyyəsinə və narkomaniyaya qarşı mübarizəsini, belə desək, gözdən salmaq fikrində deyilik. Əksinə, bir çox rayonların polis əməkdaşlarının bu sahədə gördüyü işləri hər zaman təqdir edir, üstəlik, hər ay oxucularımıza təqdim etdiyimiz hesabat xarakterli məqalələrimizdə onların fəaliyyətini geniş şəkildə işıqlandırırıq. Lakin son aylarda DİN tərəfindən verilən bəzi rəsmi informasiyalar bizdə belə qənaət formalaşdırıb ki, hansısa səbəbdən narkotiklə əlaqədar həyata keçirilən əməliyyatların bir çoxu ictimaiyyətə detallı şəkildə açıqlanmır. Onun üçün də istər gündəlik, istər də aylıq statistik nəticəni ortaya tam şəkildə çıxarmaq mümkün deyil, ancaq DİN-in açıqladığı rəqəmlərə istinad etməli oluruq.

Məsələn, DİN-in mətbuat xidmətindən bildirilib ki, Binəqədi Rayon Polis İdarəsinin əməkdaşları iyul ayı (2024-cü il - red.) ərzində keçirilən silsilə tədbirlər zamanı narkotiklərlə əlaqəli 115 fakt aşkarlanıb. Qanunsuz dövriyyədən 6 kiloqramdan artıq müxtəlif növ narkotik maddə və psixotrop maddələr çıxarılıb.

Nazirlikdən növbəti ay verilən rəsmi açıqlamada isə Binəqədi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən avqustda keçirilən silsilə tədbirlər zamanı narkotiklərlə əlaqəli 98 fakt aşkarlandığı bildirilir. Əlavə olunur ki, bu zaman ümumilikdə 29 kiloqram narkotik vasitə, o cümlədən 15 kiloqram heroin, 6 kiloqram tiryək və 8 kiloqram marixuana qanunsuz dövriyyədən çıxarılıb.

Bununla belə, DİN-in mətbuat xidməti Binəqədi Rayon Polis İdarəsinin əməkdaşlarının iyulda keçirilən silsilə tədbirlər zamanı narkotiklərlə əlaqəli aşkar olunan 115 faktdan yalnız ikisi, avqustda aşkarlanan 98 faktdan isə dördü haqda mətbuata detallı şəkildə, yəni neçə nəfərin saxlanıldığı, nə qədər narkotikin ələ keçirildiyi haqda məlumat verir. Beləliklə, iyulda aşkar olunan 115 faktın 113-ü, avqustda aşkar olunan 98 faktın 94-ü ilə bağlı cəmiyyətə hər hansı informasiya verilmir. Bu səbəbdən də, təbii olaraq, narkotik ticarəti ilə əlaqədar saxlanılan şəxslərin sayının reallığı əks etdirmədiyi haqda görüntü ortaya çıxır.

Digər tərəfdən, bir sıra özəl reabilitasiya mərkəzləri ilə apardığımız sorğunun nəticəsi də ölkədə narkotik istifadəçilərinin statistikasında ciddi dəyişiklik müşahidə edilmədiyini deməyə əsas verir.

"Güvən" Reabilitasiya Mərkəzinin rəhbəri İlqar Ağayev bildirir ki, ümumilikdə, sağalmaq üçün rəhbərlik etdiyi mərkəzə müraciət edənlərin sayı azalıb. Lakin, onun fikrincə, bu, yalnız ölkəmizdə narkomanlarının sayının azalması ilə bağlı deyil: "Bunun səbəblərindən biri odur ki, Azərbaycanda reabilitasiya mərkəzlərinin sayı çoxalıb. Reabilitasiyanı yeni bitirmiş insanlar uğur əldə etmək istəyirlər, yeni mərkəzlər açırlar".

Bunununla belə, İ.Ağayev deyir ki, reabilitasiya mərkəzlərinin bir çoxu heç də istənilən nəticəni vermir: "Həmin reabilitasiyaların nəticələri də elə olur ki, əksər pasiyentlər yenidən istifadəyə qayıtmalar olur. Təbii ki, yenidən istifadəyə qayıdanlar ümumilikdə reabilitasiyaların adına xələl gətirir. Mən əminliklə deyirəm ki, bu gün digərləri ilə müqayisədə, yaxşı nəticələri olan mərkəzlərdən biri də "Güvən" Reabilitasiya Mərkəzidir. Amma əksər reabilitasiya mərkəzlərinin müsbət nəticələri azdır. Ona görə, oraya müraciət edən insanlar çıxandan sonra yenidən istifadəyə qayıda bilirlər. Bu isə birmənalı olaraq reabilitasiya mərkəzləri haqda mənfi rəy formalaşdırır".

> Bununla belə, DİN-in mətbuat xidməti Binəqədi Rayon Polis İdarəsinin əməkdaşlarının iyulda keçirilən silsilə tədbirlər zamanı narkotiklərlə əlaqəli aşkar olunan 115 faktdan yalnız ikisi, avqustda aşkarlanan 98 faktdan isə dördü haqda mətbuata detallı şəkildə, yəni neçə nəfərin saxlanıldığı, nə qədər narkotikin ələ keçirildiyi haqda məlumat verir. Beləliklə, iyulda aşkar olunan 115 faktın 113-ü, avqustda aşkar olunan 98 faktın 94-ü ilə bağlı cəmiyyətə hər hansı informasiya verilmir. Bu səbəbdən də, təbii olaraq, narkotik ticarəti ilə əlaqədar saxlanılan şəxslərin sayının reallığı əks etdirmədiyi haqda görüntü ortaya çıxır...

Mərkəz rəhbəri vurğuladı ki, ümu götürdükə, ölkəmizdə narkomanların sayında azalma müşahidə olunur: "Narkomanların sayında azalma var, amma müraciət edən iqromanların sayında artım kifayət qədərdir. Bilirsiniz ki, iqromaniyadan əziyyət çəkən insanların inkanları çox olur, bir müddət özlərini asılı kimi qəbul etmirlər. Lakin bizm mesajımız cəmiyyətə çox yayıldıqca onlardan müraciət edənlərin sayı artır.

Sağalma sayına gəlincə isə, əlbəttə, inkişaf var. Biz illərlə bu işin içində olduğumuza görə, təcrübəmiz artır, sağalma sayımız da, inkişafımız da dəyişir. Əvvəllər reabilitasiyaya gələn 20 nəfərdən 7-si, 10-u sağalırdısa, indi sağalma nəticələrimizi ən azı 50-60 faizə çatdıra bilmişik".

İlqar Ağayev sonda onu da deydi ki, özəl reabilitasiya mərkəzləri sərbəst fəaliyyət göstərir və heç bir rəsmi qurum tərəfindən müdaxilə olunmur: "Dövlət tərəfindən hər hansı bir maneə yoxdur. Amma qiymətlər çox ucuzlaşıb. Yenə də deyirəm, hansısa şəxslər ata-ana hesabına reabilitasiya mərkəzləri açırlar, düşünürlər ki, elə ayıq qalmağım üçün bu mərkəzi işlədim. Onun üçün qiymət fərqi yoxdur".

"Həyat naminə" Reabilitasiya Mərkəzinin rəhbəri Kənan Hacıyev saytımıza bildirdi ki, müalicə üçün rəhbərlik etdiyi mərkəzə müraciət edənlərin sayı azalıb: "Bunun səbəbi qeyri-peşəkar reabilitasiyaların sayının çox olmasıdır. Təəssüf ki, onların ücbatından cəmiyyətdə reabilitasiyalara inam, etibar qalmayıb".

Sağalma faizinə gəlincə isə, K.Hacıyev dedi ki, müsbət göstərici 20 faiz civarındadır: "Ümumiyyətlə, mərkəz daxilində olan proqram 100 faizdən 20 faiz nəticə verir".

"Start" Reabilitasiya Mərkəzinin rəhbəri Cavid Tağıyev bildirir ki, sağalmağa gələnlərin sayının artması-azalması nisbidir: "Onların özləri sağalmağa gəlmək istəmir, özlərini aldadırlar, bəraət qazandırırlar. Onları sağalmaq üçün gətirənlər valideyinlər olmalıdır. Amma valideynləri də aldadırlar ki, yaxşıyam, dərman atıram. Bir çox hallarda əvəzləndirmə edirlər. Bir çox hallarda deyirlər ki, narkotik istifadə etmirəm ki, içki içirəm. Burada da özlərini aldadılar. Bu kimi hallarda valideynlər dərhal mərkəzə müraciət etməlidirlər.

Sağalma faizinə gəlincə, "12 addım" proqramı ilə nəinki bizim mərkəzdə, respublikamızdakı bütün mərkəzlərdə fəaliyyət göz qabağındadır. Bundan əvvəlki dövrlərə baxanda, indi ayılanların sayı qənaətbəxşdir. Bizim mərkəzimizdə 160-dan çox insan burada müalicə alıb. Hal-hazırda onun 125-i sağlam həyat tərzi sürür".

"Yeni sabah" Reabilitasiya Mərkəzinin rəhbəri Rəfi Rəfibəyli də deyir ki, son 5-6 ay ərzində mərkəzə müraciət edənlərin sayında azalma var: "Məncə, bu, onunla bağlıdır ki, həm narkotik istifadə edənlərin sayı azalıb, həm də reabilitasiya mərkəzlərinin sayında artım var. Ümumiyyətlə, müraciətləri 100 faiz nisbəti ilə götürsək, onların 70 faizini narkomaniya, 25 faizini alkoqolizm, 5 faizini də qumar asılılığı təşkil edir.

Sağalma faizinə gəldikdə isə, bu, təxminən, 60 faizdir. Bunlar isə deyilənlərə düzgün əməl olunduqda ayıq qalanlardır. Ayıq qala bilməyənlərin də əksəriyyəti o şəxslərdir ki, reabilitasiya dövrünü keçdikdən sonra deyilən tövsiyələrə əməl etmirlər, pul sərhədi, emosional münasibətlər, avtomobil və digər sərhədləri gözləmirlər".

"Qurtuluş" Reabilitasiya Mərkəzinin proqram rəhbəri Məmmədrza Qafarov da bildirdi ki, son 6 ay ərzində reabilitasiya mərkəzinə muraciət eldənlərin sayı azalıb: "Amma son vaxtlar biz daha təhlükəli problemlə üzləşmişik. Bu da odur ki, mərc və qumar oyunları asılılarının sayı artır. Son vaxtlar ən cox bununla bağlı muraciətlər var və sırf bu problemdən əziyyət çəkən qardaşlar ücün ayrı korprus açmışıq.

Onu da deyim ki, mən bu asılılığa dair "krizis psixologiyası"na baglı sırf qumardan və mərc oyunlardan əziyət cəkən şəxslər ücün ayrıca bir mualicə metodikası düzəltdim.

Ümümilidə, fəaliyyət göstərdiyi 4 il müddətində "Qurtuluş" Reabilitasiya və Sosial Adaptasiya Mərkəzi 9 aydan bir fərqli statiststikani göstərir. Çünki 9 aydan bir mühit dəyişilir, şəxslər mualicəni bitirirlər və onların yerinə başqa asılılar qəlir. 6 ay stasionar mualicə olunur, 3 ay da sosial adaptasiya procesi nəticəsində - ümümi 9 ay ərzində onlar post-abstinens sindromundan azad olurlar. Elə olub ki, 9 aya 90%-ə yaxin nəticə göstərmişik, 90% ayıq qalıb. Elə də olub ki, sağalma faizi 70% olub. Amma 70%-dən aşağı düşməyib".

**Hazırladı: İ.SABİRQIZI**

**Tarix üzrə fəlsəfə doktoru Hacı Nərimanoğlunun mətbuatda dərc olunan "Türk dili və əlifbası Türk Dövlətləri Birliyinin ortaq dili, əlifbası olaraq qəbul edilməlidir", başlıqlı məqaləsi məni bir daha ümumtürk ədəbi dilinin yaradılmasının zəruriliyi, onun hansı əsaslar və qaydada formalaşdırılması məsələsinə qayıdaraq, adıçəkilən məqalədə irəli sürülən fikirlərə münasibəti bildirməyimi zəruri etdi. Müəllif bu məsələnin həll edilməsi haqqında hökm formasında başlıqda ifadə edilmiş fikrinin səbəbini qısa izah etdikdən sonra, bu variantın qəbul edilməsini zəruri səbəblər qismində müxtəlif amilləri sadalayaraq fikrini əsaslandırmağa çalışır.**



# Yenə də ümumtürk ədəbi dilimiz haqqında

*(Əvvəli ötən saylarımızda)*

Mən BMT-nin bu rəsmi dilinin statistik xüsusiyyətlərini ortaya çəkdim ki, oxucu, həm də Hacı Nərimanoğlu bu dillərin daşıyıcıları, əhatə etdiyi ərazi, ən başlıcası isə bu dillərdə neçə hərf və neçə səs olmasından asılı olmayaraq, bu dillərin çoxsaylı ölkələrdə dövlət dili olmasının, beynəlxalq müstəvidə belə geniş yayılmasının səbəbləri, yerinə yetirdiyi funksiya barədə bir qədər aydın təsəvvürə malik olmaqla, Türkiyə türkcəsinin məqsədi, funksiyaları ilə onları düzgün müqayisə edə bilsin.

Belə ki, dünyada ən çox yayılmış ingilis, ispan, fransız dilinin başqa millətlərin yeganə, şərikli dövlət dilinə çevrilməsi, həmin millətlərin ərazilərinin işğal, millətinin əsarətə alınıb, dillərini beynəlxalq müstəvidən təcrid edilib, yerli, məişət dilinə çevrilməklə, həmin millətləri assimilyasiya prosesinə qandallaması ilə əlaqədardır. Bu prosses günümüzdə də getməkdədir.

Ərəb dilinin bu gün 9 (doqquz) dövlətin ərazisində şərikli dövlət dili olmasının səbəbi isə, vaxtilə ərəblərin işğal edərək məskunlaşdığı ərazilərin, ərəb imperiyasının süqutundan sonra azadlıq əldə edən millətlərin ərazisində qalıb yaşayan çoxsaylı ərəblərin mövcudluğudur. Keçmiş SSRİ-nin tərkibində olmuş ölkələrdə (Belarusiya istisna olmaqla) bu gün rus dilinin şərikli dövlət dili olmamasının əsas səbəbi, həmin millətlərin SSRİ adlanan rus imperiyasının tərkibində fələn də olsa milli dövlət statusu və mexanizminin olmasıdır. Bununla belə, bu ölkələrdən çoxunun, xüsusilə türk respublikalarının hələ də Rusiyanın hərbi, iqtisadi, siyasi və s. təsir dairəsindən çıxa bilməməsi, eyni zamanda, parçalanıb, bir-birinə yadlaşdırılaraq beynəlxalq müstəvidə tətbiq dairəsi demək olar ki, olmayan türk dialektlərinin bu günkü vəziyyəti, həmin ölkələrdə rus dilinin hələ də kütləvi istifadəsini labüd etmişdir. K.Marks dediyi kimi, "hər bir cəmiyyət içərisindən çıxdığı köhnə cəmiyyətin anadangəlmə ləkələrini bütün cəhətlərdən, iqtisadi, mənəvi və əqli cəhətdən hələ öz üzərində daşıyır". Həyatın bu obyektiv qanunauyğunluğu yüz illərlə rus imperiyasının əsarətindən azad olan türk respublikaları, o cümlədən Azərbaycana da aiddir.

Çinin BMT-nin rəsmi dili statusu qazanmasının ilkin səbəbi, BMT yaranarkən, SSRİ-nin dünyanın ən iki güclü dövlətlərindən biri və dünyada söz sahibi olması, özünün inkişaf baxımından dünyanın ən iki güclü dövlətindən biri geri qalmış olsa da, ərazi baxımından 3-cü, əhali baxımından isə 1-ci dövləti olan, müttəfiqi Çini, bu məsələdə qəti dəstəkləməsi olub. 1980-ci ildən bəri isə Çin dinc islahatlar yolu ilə dövlət quldarlığı quruluşundan dövlət feodalizmi quruluşuna keçərək, əhalisinin mütləq əksəriyyətinin hələ də çox aşağı səviyyədə yaşamasına baxmayaraq, ümumilikdə ölkənin iqtisadi, texniki, texnoloji cəhətdən sürətli, geniş və çox yüksək inkişafına nail olmaqla, artıq dünya ağalığı rəqabətində ABŞ-ın əsas rəqibinə çevrilməklə, öz dilinin beynəlxalq statusuna da real məzmun vermişdir.

Bu gün BMT-nin rəsmi beynəlxalq dili statusu daşıyan dillərin hamısının ən əsas cəhəti də odur ki, onların başqa millətlərə kobud zor və ya yumşaq güc vasitəsilə qəbul etdirilməsi, onların assimilyasiya prosesi olmaqla yanaşı, bu prosesdə özlərinin heç bir kəlmə də söz itkisinə məruz qalmamasıdır. Bu gün türk millətinin, həm də onun ən böyük dövləti olan Türkiyənin məqsədi türk millətinin tərkib hissəsi olub, parçalanmış türk toplumlarını «assimilyasiya» edərək onların dialektinin xalis türk sözlərini yaddaşlardan silməklə, ümumilikdə TÜRK DİLİNİN ən azı 50 (əlli) faiz zəiflədilməsi deyil, əksinə, bu dialektlərdə olan xalis türk sözlərinin, başqa türk dialektlərində olduğu kimi, Türkiyə türkcəsində olan ərəb, fars və başqa yad sözlərdən təmtlənərək, zəngin TÜRK DİLİNİN yaradılması olmalıdır.

Hacı Nərimanoğlunun Türkiyənin böyük iyirmiliyin (G20) üzvü olması ilə bitən sadaladıqlarının heç bir cəhəti, ümumilikdə isə hamısı birlikdə ərəb, fars və s. millətlərin sözləri yetərincə olan Türkiyə türkcəsini ümumtürk ortaq dili statusunda qəbul edərək, başqa türk dialektində olan və bu günkü Türkiyə türkcəsindəki xalis türk sözlərindən iki dəfə çox sözdən imtina edərək, türk dilinin dayaqlarını məhv etmək üçün əsas ola bilməz. Əgər biz bunu etmiş olsaq, o zaman milli şüur sahibi olmayan qüdrətli şah, sultan babalarımızın ərəb, fars dilini türk yurdlarında dövlət dili statusuna qaldırmaqla, əslində türk dili ilə birlikdə Türk mənliyinin tədricən məhv edilməsi prosesini davam etdirmiş olarıq. Bu günə mövcud olan hər hansı bir türk dövləti böyük dünya güclərinin müvəqqəti maraq çərçivəsinə düşməklə (Azərbaycanın Avropanın yanacaq ehtiyaclarını ödəməsi kimi - Ş.Q.) nəinki hansısa iyirmiliyə, hətta onluğuna da düşə bilər.

Əgər biz bütün cəhətlərdən böyük türk milləti olmaq istəyiriksə, onda bizim dilimiz də zəngin türk dili olmalıdır. Yox, əgər biz tezliklə, dili BMT-nin altı rəsmi dili kimi statusa malik olan millət olmaq istəyiriksə, onda gərək nəhəng millət olmaq üçün 1,5 milyard sayla, gəlişmiş çin millətinə, ya da ingilis dilini qəbul edib, ingilis millətinə çevrilməliyik. Dil məsələsini ən asan yolla və daha tez həll etmək istəyiriksə, tərkibi 35 faiz türk sözlərindən, 30 faizi ərəb sözlərindən ibarət olan fars dilini qəbul edib farslaşmaq, yaxud bütün türk dillərinə yetərincə pərçim edilmiş ərəb dilini qəbul edib, ərəbləşmək zorunda qalmış olarıq. Bu, bir də xüsusilə ona görə ən asan yoldur ki, yüzlərlə illərdən bəri türkü parçalamaqla, milli şüuru olmayıb, erməni, fars, rus və s. gözəlçələrinə aludə olanları ələ almaqla, nəslini türkə yadlaşdırılanları, körpəlikdən türkə, müsəlman adı qoyulub, əslində isə yad, düşmən millətlərin nümayəndəsi olanları millətimizə öndər, rəhbər, başçı qoymaqla bütün türk dünyasında, o cümlədən Azərbaycanda gizdiaşkar türk milli mənliyinə bütün iqtisadi-ictimai, mənəvi, əxlaqi alanlarda aparılan soyqırımı şəraitində, dilçi alimlərimizin, dövlət rəhbərlərimizin, bütün türk sözlərini bir söz fonduna yığılıb, zəngin ümumtürk ədəbi dili yaratmağın mümkünlüyünü dərk etmək üçün ağlı, savadı, milli şüuru, iradəsi, istəyi çatmayıb, ancaq gözdən pərdə asmaq üçün təmtəraqlı konfranslar və bu konfranslarda boğazdan yuxarı, gəlişi gözəl, təmtəraqlı ümumi sözlərdən ibarət nitqlər söylənməsini təşkil etməklə, ancaq görüntü yaratmaqla məşğul olacaqlarsa, onda nəticənin nə olacağından asılı olmayaraq, "Qarabağ traktatından" sonra yaranmış, rusun "Osyol Karabaxskiy" (Qarabağ eşşəyi), 1925-ci ildə Qacar yurdunda ingilisfars cütlüyünün hərbi çevrilişindən sonra farsın ixtirası olan «Torke xər» (eşşək türk) terminləri bütün tarix boyu, bütün dünya millətlərinin dilində ümumbəşəri zərb-məsəl kimi dəbdə olacaq.



Dünya türklərinin, o cümlədən bu günə müstəqil olan türk dövlətlərinin daimi və əsaslı inkişaf yoluna çıxarılması müxtəlif məsələlərin mərhələlərlə əsaslı, ardıcıl, kompleks tədbirlərin müəyyən edilərək həyata keçirilməsini tələb edir. Bu tədbirlərin ən birinci, vacib, fundamental olanı, bütün türk sözlərinin bir fondda toplanaraq bir söz belə itirmədən vahid, zəngin ümumtürk ədəbi dilinin yaradılaraq bütün türk toplumlarında ana dili olaraq tədris, təbliğ və tətbiq edilməsidir. Hacı Nərimanoğlunun özü də məqaləsində, - "Dil, əlbəttə tərəqqi, gəlişmənin, müasir hədəflərə, dövrün çağırışlarına cavab verən zənginliyin simvolu, aynası olmalıdır", deyərək, bunu etiraf edir.

Belə bir, türk dili isə, ancaq qeyd etdiyim ümumtürk ədəbi dili ola bilər. bundan da öncə, belə bir ümumtürk ədəbi dili bütün dünya türklərinin vahid, monolit millətə çevirməklə, ən azı bu günə müstəqil olan türk dövlətlərinin əhalisi, iqtisadi, ictimai, elmi, texniki, mədəni, mənəvi, qısa sözlə, bütün alanlarda sürətli və səmərəli inteqrasiyasını təmin etməyin yeganə yoludur. Həm də bu nisbətən qısa bir zaman daxilində türk dövlətlərinin müasir bir iqtisadi-ictimai quruluş çərçivəsində böyük, güclü, gəlişmiş TURAN dövlətinin yaranmasına rahat yol açmaqla bərabər, bu gün müxtəlif millətlərin əsarətində olan türklərin də azad edilməsinə münbit şərait yaranmış olar. Təkcə dilin zənginliyi, əlifbadakı hərflərin çoxluğu heç də vətəndaşın, millətin, ümumilikdə cəmiyyətin və dövlətçiliyin böyüklüyünü, qüdrətini, gəlişməsini təmin edə bilməz. Ərəblərin dili dünyanın ən çox söz fonduna malik dildir. Çinlilərin də 500-dən çox heroqlifi var. İqtisadi-ictimai, texniki, texnoloji və s. inkişaf baxımından ərəblər ən geridə qalmış, parçalanaraq cılızlaşmış millətlərdən biridir. Çinlilər isə min illər 500 heroqlifə malik olduğu halda 1980-ci ildə Den Syao Pin islahatlarına qədər acından həşərat yeyən ən səfil bir millət idi. Zəngin ümumtürk dilinin yaradılması türkləri təkcə monolit, vahid və böyük millətə çevirməkdən başqa, bizləri, dilimizə yad millətlərin sözlərinin pərçim edilməsi vasitəsilə türkü xeyli dərəcədə assimilyasiyaya məruz qoymaqla, özünü-özünə yadlaşdırılması prosesinə də son qoymuş olacaq.

İqtisadi-ictimai, texniki, texnoloji və s. alanlarda gəlişməyə nail olmaq üçün isə başqa millətlərin ideoloji silahı olan dinlərdən, eləcə də Qərbin saxta azadlıq, demokratiya, azad seçki tələsi olub, bu gün dünyəvi quruluşa malik olan ölkələrdə, o cümlədən Azərbaycandakı materialist əsaslarda qurulub, hər bir vətəndaşın azadlığını, millətin, dövlətin gəlişməsini, firavanlığını deyil, bir qrup, kateqoriyadan olan adamların şəxsi və korporativ maraqlarının qorunmasına hesablanmış, dünyəvi dinlər olan siyasi partiyaların təsiri altından, girovluğundan çıxaraq, bütün alanlarda elmə və ancaq elmə sarınmaqla tarixən qısa bir dövrdə dünyada söz sahiblərindən birinə çevrilə bilərik.

**Şapur QASİMİ**

"Hürriyyət"in ötən nömrəsində regionda baş verən hadisələri Gürcüstan-Suriya bağlantısı kontekstində işıqlandırmışdıq. Baxmayaraq ki, Gürcüstanda olaylar stabil templə davam edir, Suriyada baş verənlərin alovu isə dünyanı qarsalamağa bəs etdi. Çünki söhbət ya Suriyanın bütöv şəkildə Türkiyənin nüfuz dairəsinə keçməsindən, ya da parçalanaraq ərazisində yeni dövlətlərin yaranması ehtimalından gedir.

# Suriyada rejim dəyiş



## ABŞ-ın "Böyük Yaxın Şərq" projesi işə düşür...

Suriyada yaşanan proseslərə illər əvvəl haqqında söhbət gedən "Böyük Ortadoğu Projesi"nin addım-addım həyata keçirilməsi kimi də baxmaq olar. Bölgədə baş verənlərə nəzər yetirəkən hadisələri bu rakursdan analiz etmək tam məntiqlidir. Yəni "Böyük Yaxın Şərq" layihəsinin düyməsi basılaraq, "yaşıl işıq" yandırıldı.

ABŞ dünyaya "Böyük Yaxın Şərq" termininin siyasi terminologiyada təqdimatını 2006-cı ilin iyununda Pentaqonun nəşr etdiyi "Armed Forces Journal" hərbi jurnalı vasitəsilə etdi. Hansı ki, bu, "istefada olan polkovnik Ralf Petersin xəritələri"nin dünyanın yenidən formatlanmasına dair proqnozu kimi meydana çıxdı. Amma "Böyük Yaxın Şərq" 1980-ci ildən bəri istifadə edilən siyasi və coğrafi termindir. "Yeni Yaxın Şərq" termini ilk dəfə İsrailin keçmiş baş naziri Şimon Peresin "The New Middle East" (1993) kitabında dünyaya təqdim edilmişdir.

Yaxın Şərqə ənənəvi ərəb ölkələri ilə yanaşı, İran, Türkiyə, Əfqanıstan, Pakistan və mərkəzi-şərq regionunda bir sıra müsəlman ölkələri, Məğrib ölkələri, İsrail, Qafqaz, Kipr və Malta və bəzən bir sıra Türküstan (Mərkəzi Asiya) ölkələri də daxil edilir. Vaxtaşırı müsəlman ölkələrinin müxtəlif bölgələrini birləşdirəcək "Böyük Yaxın Şərq" ideyası kənardan tənqid olunur, hətta onu təhlükəli sayırlar. Həftəlik "Əl-Ahram" qəzetinin təhlilçilərinin fikrincə, bu yeni məfhum Yaxın Şərqdəki bütün münaqişələri həll etməyəcək. Həm də bərabər hüquqlu ölkələrin ideoloji birləşməsi özlüyündə Fələstinin və "Kürdüstan"ın müstəqilliyini nəzərdə tutur. Ekspertlər hesab edir ki, Yaxın Şərqin bütövləşməsi kortəbii deyil, hamar və qlobal olmalıdır, çünki bütün ölkələrdə siyasi və iqtisadi vəziyyət fərqlidir. Həmçinin, sosial, mədəni, təhsil aspektlərini və müxtəlif regionlarda təhlükəsizlik dərəcəsini nəzərə almaq lazımdır. Bəs bu rəngarəngliklərı, fərqlilikləri kim vəhdətdə birləşdirə və birləşdirici amil rolunu kim oynaya bilər?

Məsələyə bir az da geniş müstəvidən göz ataq. Belə bir rəy var ki, Livan və Fələstindən Suriya, İraq, Fars körfəzi bölgələrinə, İrandan tutumuş Əfqanıstana qədər uzanmalı olan qeyri-sabitlik qövsünün yaradılmasının müəllifi İngiltərə-Amerika-İsrail bucağıdır. ABŞ-ın Çinlə olan savaş ehtimalını, amma indiki etapda qarşıdurmanın hələ ticarət savaşı müstəvisində getdiyini nəzərə alsaq, qeyd etmək yerinə düşər ki, Suriyadakı hadisələri başladan səbəb ABŞ-ın Çinlə qarşıdurmaya qədər Yaxın Şərqi öz marağı istiqamətində dizayn etmək istəyidir. ABŞ başlıca rəqiblə qarşıdurma zamanı heç kimin əl-ayağa dolaşmasını istəmir, çünki bu onun enerji itirməsinə gətirəcək.

Maraqlıdır ki, 2006-cı ildə İsrailə səfəri əsnasında dövlət katibi Kondoliza Rays da "Böyük Yaxın Şərq" terminini işlətmişdi. Raysın bu çıxışı "Bakı-Tiflis-Ceyhan" neft terminalının açılışı və II-ci Livan müharibəsi ilə üst-üstə düşdü. ABŞ nümayəndə heyətinin səfərindən sonra İsrailin baş naziri Ehud Olmert deyib: "Böyük Yaxın Şərq layihəsinin həyata keçirilməsi Livandan başladı".

Vaşinqton hesab edir ki, Livan müharibəsi onun birbaşa müdaxiləsi üçün qanuni səbəbə çevrilməli, bundan sonra regionun sərhədlərinin dəyişdirilməsi prosesi başlaymalıdır. Ancaq heç kim gözləmirdi ki, ABŞ-ın NATO alyansındakı müttəfiqlərinin əksəriyyəti Qəzzada həm hərbi, həm də siyasi məğlubiyyətə uğrayan İsrailin hərəkətlərini pisləyəcək. Odur ki, Ağ Ev layihənin davam etdirilməsinə imkan verəcək yeni kritik məqamlar axtarmalı oldu.




ABŞ Respublikaçı elitası regionun gələcəkdə yenidən bölüşdürülməsi ilə bağlı G8 ölkələri ilə razılığa gəlməyə çalışaraq, "nəzarət olunan xaos" strategiyasını dəyişməyə qərar verdi. Prezident Corc Buş "müttəfiqlər" tapmağa çalışmaqdan əlavə, İraqa qarşı hərbi təcavüzə haqq qazandıran diskurs yaratmaq üçün üzdə Yaxın Şərqin "demokratikləşdirilməsi"- "Ərəb baharı" layihəsini irəli sürdü. Bu cəhd də uğursuz oldu.

Üstəlik, plan ABŞ-ın regiondakı müttəfiqləri - Türkiyə, Misir və Səudiyyə Ərəbistanı tərəfindən belə dəstəklənmədi. Bu dövlətlərin liderləri hətta bu təşəbbüsə həsr olunmuş sammitdə iştirakdan imtina etdilər. Yalnız İraqın o vaxtkı prezidenti, etnik kürd olan Cəlal Talabani Yaxın Şərqin genişmiqyaslı yenidən bölünməsi ideyasını dəstəklədi. Beləliklə, respublikaçı elita Yaxın Şərqi işlənib hazırlanmış ssenari üzrə yenidən bölmək vəzifəsinin öhdəsindən gələ bilmədi.

Niyə Yaxın Şərq? İş ondadır ki, Əfqanıstan və Pakistan kimi Yaxın Şərq ölkələri Vaşinqtona keçmiş SSRİ ölkələri üzərində təsirini artırmağa imkan verəcək əsas pillələrdir. ABŞ-ın keçmiş milli təhlükəsizlik müşaviri Zbiqnev Bjezinski özünün "Böyük şahmat taxtası: Amerikanın üstünlüyü və onun geostrateji imperativləri" kitabında Yaxın Şərqi "Avrasiya Balkanları" adlandırdığı "ərazinin açarı" kimi təqdim etməsi olduqca diqqətəlayiqdir.

Qeyd edək ki, bir çox amerikalı ekspertlərin fikrincə, "Avrasiya Balkanları" termini indiki Yaxın Şərq, Birinci Dünya Müharibəsindən əvvəlki dövrdəki Balkanların analoqudur. Bjezinskinin konsepsiyasına görə, "Avrasiya Balkanları"na aşağıdakılar daxildir: Cənubi Qafqaz (Ermənistan, Azərbaycan, Gürcüstan), Orta Asiya (Əfqanıstan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Türkmənistan), eləcə də Orta Şərqə bitişik Türkiyə və İran. Suriya və Livanın Aralıq dənizi sahillərinin klassik Yaxın Şərqdən ayrılması, Türkiyə və İranın parçalanması, qeyri-sabit ərəb qövsünün yaradılması ABŞ-ın uzunmüddətli maraqlarına əsaslanır, amma...gedişatdan yaranan mənzərə Türkiyənin parçalanmasl deyil, daha bir üst səviyyəyə qalxmasıdır.

Bu siyahıdakı ilk "piyadalar" artıq silinib: Əfqanıstan (xaos və bölünmə), İraq, Liviya, Misir (dövlətçilik faktiki məhv edilib). Respublikaçıların başladığı, ən güclü hərbi-maliyyə elitaları ilə əlaqəli olan gedişatı Demokratlar Partiyasının elitası davam etdirdi. Bununla belə, respublikaçılardan fərqli olaraq, bugünkü elitaların Böyük Yaxın Şərqin gələcək mənzərəsi barədə öz fikirləri var. Regionun yeni sərhədləri "Sülh İnstitutu"nun (Demokratik elitanın tədqiqat mərkəzlərindən biri) professoru Robin Rayt tərəfindən tərtib edilmiş xəritədə göstərilib.

Raytın xəritəsində Səudiyyə Ərəbistanı dağılıb, onun yerində beş ölkə görünür: "Şimali Ərəbistan", "Cənubi Ərəbistan", "Qərbi Ərəbistan" və "Şərqi Ərəbistan", paytaxtı Ər-Riyad olan dövlət. Demokratçı ABŞ ilə İranın yaxınlaşması və Ankaranın Suriya münaqişəsinə süni şəkildə qarışması Türkiyəni "siyasi çıxdaş"a çevirmək fikrində idi. Amma eyni zamanda, Amerikanın regiondakı xarici siyasətini konkret dövrdə hakimiyyətdə olan elita-

# ikliyi regiona nə vəd edir?

ların maraqları prizmasından nəzərdən keçirmək lazımdır. "Neokonservatorlar"dan (Respublikaçılardan) fərqli olaraq, hazırkı siyasi elitanın nümayəndələri "konstruktiv xaos" anlayışını tərcih edərək "nəzarət olunan xaos" strategiyasını kökündən yenidən nəzərdən keçirib.

Uzun müddət bölgədə yerli hegemon yox idi - bu və ya digər dərəcədə bu ərazilər Qərbin nəzarətində idi. İndi bir neçə dövlət liderlik uğrunda mübarizə aparır: Sünni Türkiyə və Səudiyyə Ərəbistanı, şiə İran. Doha bu "yarmarka"da iştirak etmək üçün "iddia ərizəsi" təqdim etdi, bu yaxınlarda Abu Dabi də bu təşəbbüsü göstərdi. İslamabadın Əfqanıstana geniş baxışı var. Digər geosiyasi qütbdə isə İraq, Suriya, Yəmən, Liviya - parçalanma təhlükəsi ilə bilavasitə üzləşmiş dövlətlər dayanır. Bütün bunlar regiona sabitlik qatmır.

Bu proseslər ABŞ-ın bu regionda təsirinin zəifləməsi fonunda baş verir. Əgər 2001-ci ildə Kondoliza Rays Yaxın Şərq dövlətlərində bazar demokratiyasının (əsasən güc yolu ilə) həyata keçirilməsi konsepsiyasını irəli sürmüşdüsə, 15 ildən sonra Barak Obama Konqresdə çıxış edərək demişdi: "Biz böhrana düşən hər hansı ölkəni yenidən qurmağa cəhd edə bilmərik. Bu liderlik deyil, bu, bizim bataqlığa düşməyimiz, qan tökməyimiz və pulu sonda bizi zəifləədəcək şeylərə xərcləməyimizdir". Onun varisi - Bayden regional məsələlərdə "kurator"un rolunun ABŞ-dan Şimali Atlantika Alyansına keçməli olduğuna inanaraq Amerika qoşunlarını Yaxın Şərqdən çıxarmağa başladı. Çıxarma öncə Əfqanıstandan başladı, indi isə Trampın diliylə Suriyada da baş verəcək.

Türkiyə isə bunun tam əksini göstərir. Ankara bölgədə nüfuzu tam ələ almağa, bütün bölgəni ardınca aparmağa razı və hazırdır. Son illərdə Ankaranın xarici siyasətinin əsas aləti İraq, Suriyadakı hakim rejimləri və son zamanlar Liviyada Haftarı gərginlikdə saxlayan böyük və döyüşə hazır ordu olub. Eyni sözləri Ermənistan, Yunanıstan və Kipr Respublikası haqda da demək olar.

Bu arada, nüfuzlu politoloq Corc Fridmanın səsləndirdiyi mesaj Ankaranın ruh yüksəkliyini daha da artırır: "Amerika artıq regionda olmaq istəmir. Türkiyə kimi ölkələrin bölgə üçün məsuliyyət daşımasını gözləyirik. Əks halda, Yaxın Şərq xaos vəziyyətində qalacaq". Bu, ondan xəbər verir ki, ABŞ elitası konstruktiv idarəolunan xaosun dirijor çubuğunu Türkiyəyə etibar edib.



> Türkiyə isə bunun tam əksini göstərir. Ankara bölgədə nüfuzu tam ələ almağa, bütün bölgəni ardınca aparmağa razı və hazırdır. Son illərdə Ankaranın xarici siyasətinin əsas aləti İraq, Suriyadakı hakim rejimləri və son zamanlar Liviyada Haftarı gərginlikdə saxlayan böyük və döyüşə hazır ordu olub. Eyni sözləri Ermənistan, Yunanıstan və Kipr Respublikası haqda da demək olar...



Bu yanaşma indiki Ankara rejiminin maraqları ilə mükəmməl uyğunlaşır. Buna baxmayaraq, ABŞ-la münasibətlər getdikcə mürəkkəbləşir və kürd probleminin kəskinləşməsi Ankaranı iki NATO müttəfiqi arasında yeni münaqişələrlə dolu olan Suriya istiqamətində daha da qətiyyətli hərəkət etməyə sövq edə bilər.

Yeri gəlmişkən, Suriyadan "dabanına tüpürüb qaçan" Rusiya Türkiyədən qoşunlarının təhlükəsiz şəkildə çıxarılmasına köməklik göstərməsini istəyir. Əsgərlərin Türkiyənin nəzarət zonasına köçürüləcəyi, daha sonra isə hava yolu ilə Rusiyaya göndəriləcəyi ehtimal edilir. Analitiklər qeyd edirlər ki, peyk məlumatları Rusiya kontingentinin Xmeymim və Tartusdan qismən çıxarılmasından xəbər verir. Baxmayaraq ki, Əsədlə ailəsinin Rusiyaya qaçdığı xəbərləri yayılıb, Kreml onu xilas etmək üçün müdaxilə etmək niyyətində olmadığını açıqlayıb. Bundan başqa, Rusiya Suriyanın cənubundakı Dəra əyalətində İsrailə 2 obyekt verib. Bu barədə Səudiyyə Ərəbistanının "Al Arabiya" telekanalı öz mənbələrinə istinadən məlumat yayıb. Qeyd edilir ki, bundan əlavə yəhudi dövləti "casusluq üçün rəsədxana" da alıb.

Eləcə də, İran Suriyada Əsədin devrilməsindən sonra üsyançılarla birbaşa əlaqə quraraq, ölkələr arasında "düşmən trayektoriyasının" qarşısını almağa çalışır. Əslində isə hansısa şəkildə bölgədə qurulacaq yeni hökumətlə başlarını saxlamaq istəyir. Hökumətə regional strategiya ilə bağlı məsləhətlər verən iranlı analitik Mehdi Rəhməti deyib ki, "Tehran anlayır ki, Suriyada vəziyyəti hərbi yolla sabitləşdirmək iqtidarında deyil. Bu varianta da baxılmır. Amma hər bir halda Türkiyənin Suriyadakı uğurundan sonra İran geriləməyə başlayıb".

Maraqlıdır ki, Britaniya və ABŞ "Həyat Təhrir əş-Şam"ı Suriyada Əsəd rejimini devirmək üçün Suriya üsyançılarının ittifaqına rəhbərlik etdikdən sonra terror təşkilatları siyahısından çıxara biləcəyini açıqlayıb. ABŞ da həmçinin HTS-in hərəkətlərindən asılı olaraq gələcəkdə terrorçular siyahısından çıxarılmasına icazə verib. ABŞ rəsmisi bildirib ki, Vaşinqton qrupla əlaqə saxlayır. Donald Tramp ABŞ-ı üsyançıların artıq Dəməşqin kənarında yerləşdiyi Suriyadakı hadisələrə qarışmamağa çağırıb. Eləcə də Trampın, "Suriya xaosdur, lakin o, bizim dostumuz deyil və ABŞ-ın bununla heç bir əlaqəsi olmamalıdır. Bu bizim mübarizəmiz deyil. Qoy nə olur olsun. Qarışmayın", əmri Vaşqintonun "sükanı Türkiyəyə etibar etdiyini" göstərir.

**Beləliklə, Suriyanın Türkiyənin nüfuz dairəsinə keçməsilə, bölgənin digər hissələri də Ankaranın təsirinə keçəcək. Suriyanın aqibətinin necə olacağı ilə bağlı isə bir neçə ehtimal var:**

**1.** Suriya Demokratik Respublikası qurula bilər - ideoloji fərqlərə baxmayaraq, müxalifət fraksiyalarının ittifaqının mümkün yaradılması ilə;

**2.** Suriya İslam Respublikası qurula bilər - əsas oyunçusu "Heyət Təhrir əl-Şam"ın İslam rejiminə rəhbərlik edəcəyi variant;

**3.** İsrailin nəzarəti altında olan anti-şiə dövləti yarana bilər - anti-şiə əhval-ruhiyyəsinə yönəlmiş və İsrail tərəfindən dəstəklənən yeni dövlətin formalaşması ilə bağlı fərziyyə.

Yaxud bu variant da realdır ki, etnik və dini fərqlərinə görə Suriya bir neçə dövlətə bölünsün - sünni, ələvi, türkmən dövlətlərinə. Bu versiyada Suriyadakı YPG zəbt etdiyi ərazilərin İraq Kürdüstanına birləşmək istəyər.

Hər bir halda Suriyanı təsiri altına alan Türkiyə PKK/YPG terror qruplarının kökünü qurutmalı, ABŞ-ın bu versiyanın gerçəkləşdirməsinə imkan verməməli, yaxud Londonla biraraya gəlib bu ehtimalın qarşısını almalı, ABŞ-ın bu fikirdən daşınmasına nail olmalıdır. Məqam bu andır. Bu an Türkiyənin tam böyüyəcəyi məqamdır. Suriya türkmənləri orada Türkiyənin əsas bazasıdır və Ankara onların zəmanəti ola bilər. Türkiyənin ərsəyə gətirməli olduğu layihə başını çəkdiyi TURAN ilə Böyük Yaxın Şərqi bir cinahda birləşdirməkdir.

**Ülviyyə ŞÜKÜROVA**

"Hüquqları Pozulmuş Məhkumların Müdafiəsi və Maarifləndirilməsi" İctimai Birliyinin sədri, Maliyyə Təsərrüfat Fəaliyyətinin Təhlili üzrə iqtisadçı-ekspert Abdullayev Böyükağa Abdulla oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına növbəti məktub daxil olub. Qəzetimizin 16.09.2024-cü il tarixli sayında dərc olunan "Ondan ötrü Şəhid verməndik ki, siz oturub rahat-rahat pul yığasınız..." və 01.10.2024-cü il tarixdə işıq üzü görən "Məhkəmə sədri Şəhid Ailəsininin 3 üzvünü həbs etdirib?" sərlövhəli yazılarla bağlı təkzib xarakterli müraciət edən İctimai Birlik sədrinin məktubunu olduğu kimi dərc edirik:

# Şəhid ailəsi adından sui-istifadə

## Böyükağa Abdullayev "Hürriyyət"ə ünvanlanan məktublarda Bakı Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərovu ittiham edən şəxslərin şəhid ailəsinin üzvü olmadıqlarını açıqladı...



Böyükağa Abdullayev

**"Hörmətli redaksiya!**

Bildirirəm ki, 16.09.2024-cü il tarixdə "Ondan ötrü Şəhid verməndik ki, siz oturub rahat-rahat pul yığasınızg" və 01.10.2024-cü il tarixdə "Məhkəmə sədri Şəhid ailəsininin 3 üzvünü həbs etdirib? - Mübariz Əkbərova qarşı şok ittihamlar" başlıqları altında, Bakı şəhəri, Buzovna qəsəbəsi, Qədəmgah küçəsi, ev 36 ünvanda yaşayan Dadaşov Qızqayıt Məmmədağa qızı və Dadaşov Namiq Hacıbaba oğlu tərəfindən verilmiş şikayət bir çox KİV-də o, cümlədən də "Hürriyyət" qəzetində və Hurriyyet.az saytında olduğu kimi dərc edilmişdir.

"Biz Şəhid ailəsiyik" deyərək, Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, eləcə də Məhkəmə Hüquq Şurasının üzvü-Ədliyyə nazirinin müavini Abidin Hüseynova, MHŞ üzvü -Konstitusiya Məhkəməsinin hakimi Kamran Şəfiyevə, MHŞ-nın üzvü-Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri İsmayıl Xəlilova, MHŞ-nın üzvü-Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Tofiq Paşayevə, MHŞ-nın üzvü - Naxçıvan Ali Məhkəməsinin sədri Səadət Bektaşiyə, MHŞ-nın üzvü - Ali Məhkəmənin Mülki Kollegiyasının sədri Sənan Hacıyevə, MHŞ-nın üzvü - Ali Məhkəmə sədrinin müavini Çingiz Əsgərova, MHŞ-nın və Ali Məhkəmənin sədri İnam Kərimova və MHŞ-nın üzvü - Bakı Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərova müraciət edən və Bakı Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərovun barəsində MHŞ qarşısında məsələ qaldırılmasını və barəsində qanuna müvafiq tədbir görülməsini tələb edən Şəhid ailəsinə təmənnasız köməklik göstərənlərdən biri də mən olmuşam. Çünki, hər kəsə məlumdur ki, hər bir Şəhid ailəsi və şəhid ailəsinin hər bir üzvü dövlətimizin daima diqqət mərkəzindədir. Şəhid ailələri və üzvləri cəmiyyətimizin ən həssas təbəqəsidir. Şəhidlərimizə daima borcluyuq, şəhidlərin ailələrinə də köməklik etmək hər birimizin borcudur. Bu baxış bucağından Şəhid ailəsinə və şəhidin ailə üzvünə köməklik göstərməyi özümə borc bilmişəm.

**Hörmətli redaksiya!**

18.09.2024-cü il tarixdə bu Şəhid ailəsinin Bakı Apellyasiya Məhkəməsinin önündə qışqırbağır salması, Mübariz Əkbərovu korrupsiyada, rüşvət almaqda suçlamasının "Kanal 15" tərəfində canlı lentə alınması, internet üstündən sosial şəbəkədə, internet portallarında paylaşımlar edilməsi gündəmin əsas mövzusu olmuşdur.(Subut üçün: Çəkilişin CD diskni əlavə edirəm)

Bu Şəhid ailəsinin iki gün sonra, 20.09.2024-cü il tarixdə Baş Prokurorluğun önündə "Baş Prokuroruma qurban olaram" qışqır-bağır salması, polisin müşayəti ilə Baş Prokurorluğun qəbul otağına salınması, aparılmış çəkilişlərin internet portallarında, sosial şəbəkələrdə yayımlanması da yadınızdadır.(Subut üçün: Bu çəkilişində CD diskini əlavə edirəm) Həmin vaxt daha nələr baş vermişdir? Bu, sonrakı məsələdir. Bu barədə də gələcəkdə geniş məlumat verəcəyəm.

Əsas məsələ odur ki, bu Şəhid ailəsinin məhkəmə sədrinə və Baş prokurora qarşı olan çıxışları məndə şübhələr yaratmağa başladı. Topladığım məlumatlar, əsaslı faktlar məni araşdırmalar aparmağa və təhlilər etməyə sövq etdi. Elə həmin gündən də bu şəhid ailəsi ilə əlaqəni kəsdim və rəsmi araşdırmalar aparmağa başladım.

Diqqətinizə çatdırıram ki, 21 oktyabr 2024-cü il tarixdə " Mən, Şəhid ailəsiyəm, şəhid anasıyam deyən Dadaşova Qızqayıt Mahmudağa qızının və həyat yoldaşı Dadaşov Namiq Hacıbaba oğlunun" yaşadığı və daima qeydiyyatda olduğu Bakı Şəhəri Xəzər Rayon İcra Hakimiyyətinə, Xəzər Rayonu Buzovna Qəsəbəsi İcra Hakimiyyəti Nümayəndəliyinə və Buzovna Bələdiyyəsinə SORĞU verdim. Bildirdim ki, Xəzər Rayon İcra Hakimiyyətinin "xazar-ih-gov.az" internet səhifəsində yerləşdirdiyiniz qısa məlumatda bildirilir ki, Xəzər rayonunda 149 Şəhid ailəsi var. Buzovna qəsəbəsi, Qədəmgah küçəsi 36 ünvanında yaşayan Dadaşov Namiq Hacıbaba oğlunun Şəhid ailəsi olub-olmaması barədə Xəzər Rayon İcra Hakimiyyətində hər hansı bir rəsmi məlumat varmı? Onlar həqiqətən də Şəhid ailəsidirmi? Yoxsa Şəhid ailəsinin adından sui-istifadə edirlər? (Subut üçün: Sorğuları əlavə edirəm)

Xəzər Rayon İcra Hakimiyyətinin 28.11.2024-cü il tarixlı 5-12/2-3564/2024 saylı sorğumuza verilən rəsmi cavab məktubunda bildirilir ki, Buzovna qəsəbəsi, Qədəmgah küçəsi ev 36 ünvanda yaşayan Dadaşov Namiq Hacıbaba oğlu şəhid ailəsinin üzvü deyil.(Subut üçün: Xəzər Rayon İcra Hakimiyyətinin məktubunu əlavə edirəm)

**Hörmətli redaksiya!**

Hər şeyi görmüşdük. Şəhid ailəsinin adından "məharətlə" sui-istifadə edən, şəhid ailəsinin adından öz çirkin-məkirli niyyətlərini həyata keçirmək üçün yararlanmaq istəyən, özü də rəsmi dövlət qurumlarının inzibati binalarının önündə haray-həşir salan bələlərini görməmişdik. Bələlərini tanımalıyıq və tanıtmalıyıq. Bələləri İfşa olunmalıdırlar. Qoy, dövlət başçımız da, Baş Prokurorluq da, Bakı Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərov da, Ali Məhkəmənin sədri də və Məhkəmə Hüquq Şurasının bütün üzvləri də bilsinlər ki, bunlar - Dadaşov Namiq Hacıbaba oğlu və həyat yoldaşı Dadaşova Qızqayıt Mahmudağa qızı heç vaxtı Şəhid ailəsi, Şəhid anası və Şəhid ailəsinin üzvü olmamışlar...

Burda söhbət təkcə Mübariz Əkbərovun korrupsiyada və rüşvət almaqda suçlanmasından, təhqir edilməsindən, şərböhtana, şantaja məruz qalmasından getmir. Söhbət ondan gedir ki, bu olaylarda hansısa yüksək çinli məmurların əli və maddi marağı olmuşdur. Bu istiqamətində araşdırılmalarımız davam edir...

Bu oyunda əli olan istər məmurun, istər də Şəhid ailəsinin adından sui-istifadə edənlərin bu hərəkətləri ŞƏHİDLƏRİN ruhuna və Şəhid ailələrinin adına vurulan ləkədir-zərbədir...

**Hörmətli redaksiya!**

Xəzər Rayon İcra Hakimiyyətinin 28.11.2024-cü il tarixli 5-12/2-3564/2024 saylı rəsmi məktubunu - Dadaşova Qızqayıt Məmmədağa qızının və Dadaşov Namiq Hacıbaba oğlunun şəhid ailəsi olmadığını nəzərə alıb, 16.09.2024-cü il tarixdə "Ondan ötrü Şəhid verməndik ki, siz oturub rahat-rahat pul yığasınızg" və 01.10.2024-cü il tarixdə "Məhkəmə sədri Şəhid Ailəsininin 3 üzvünü həbs etdirib? - Mübariz Əkbərova qarşı Şok İttihamlar" başlıqları altında "Hürriyyət" qəzetində və Hurriyyet.az saytında dərc olunmuş yazılarla bağlı TƏKZİB verməyinizi xahiş edirəm".

**"Hürriyyət"**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

Hürriyyət
Şəhid
SİZİN ÜÇÜN QƏZET
№46 (3337) 10 Dekabr / 2024-cü il
www.hurriyyet.az; / hurriyyet@mail.ru






# “Səs”

## Şəhid mayor Vüsal Vəliyevin xatirəsinə həsr olunan eyniadlı tamaşanın premyerası təqdim edildi

**3 dekabr 2024-cü ildə C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı Azərbaycanın qəhrəmanlıq salnaməsində zəfər zirvəsi olan 44 günlük Vətən müharibəsinin qəhrəmanlarına həsr olunan, şəhid mayor Vüsal Vəliyevin xatirəsinə ehtiramla Adilə Nəzərin “Axirətdən gələn səs” qəhrəmanlıq dramı əsasında İftixarın “Səs” adlı rejissor tamaşasının premyerasını təqdim etdi. Avanqard üslubda, qeyri-səlis təbəddülatla nümayiş olunan səhnə əsəri Qarabağ müharibəsində şücaət göstərən, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandıran, ərazi bütövlüyümüz yolunda canlarını fəda edən şəhidlərimizin mübarizə amallarını təcəssüm etdirir.**



Tamaşanın quruluşçu rejissoru, bədii və musiqi tərtibatının, rəqslərin quruluşçusu Əməkdar mədəniyyət işçisi İftixar Piriyevdir.

“Səs” 44 günlük Vətən müharibəsi mövzusunda tamaşaya qoyulan ilk əsərdir. Əsərdə baş qəhrəman mayor Vüsal Vəliyevlə yanaşı Milli Qəhrəman Polad Həşimov, Mübariz İbrahimov və digər qəhrəmanlarımız da ümumiləşdirilmiş Komandir obrazında yad edilir.

Premyerada ölkənin tanınmış simaları - millət vəkilləri, ədəbiyyatşünas-alimlər, sənətşünaslar, şəhid ailələri, qazilər, şəhidin mayor Vüsal Vəliyevin ailə üzvləri, kursant yoldaşları, televiziya, qəzet və sayt nümayəndələri iştirak etdi. Tamaşa izləyicilər tərəfindən maraqla qarşılandı.

Rollarda: Səmayə Nəbiyeva (Səmayə ana), Samir Əliyev (Vüsal), Əməkdar artist Esmiralda Şahbazova (Mədinə), Niyaməddin Səfərəliyev (İslam), Natiq Həziyev (Milli qəhrəman), Pərvin Dadaşova (İnci), Anar Həşimov (Elyar), Naibə Nemətova (Afaq), Xədicə Məmmədova (Snayper) və başqaları.

Xatırladım ki, mayor Vüsal Vəliyev 1988-ci il iyulun 15-də Şərur rayonunun Dizə kəndində anadan olub. 1994-2002-ci illərdə Şərur rayon Dizə kənd orta məktəbində, 2002-2005-ci illərdə Heydər Əliyev adına Hərbi liseydə, 2005-2009-cu illərdə isə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə hərbi təhsilin sirrlərinə yiyələnib. 2012-ci ildə Xüsusi Təyinatlı Qüvvələr təlimini uğurla başa vurub. Vüsal Vəliyevə 22.06.2009-cu il tarixdə leytenant, 26.06. 2012-ci il tarixdə baş leytenant, 26.06.2016-cı il tarixdə kapitan, 20.08.2020-ci il tarixdə isə mayor rütbəsi verilmişdir.

2009-cu ildən “leytenant” hərbi rütbəsində Beyləqan rayonunda xidmətə başlayıb. Tank əleyhinə taqımın komandiri, motoatıcı taqım komandiri, motoatıcı taborun qərargah bölüyünün komandiri, motoatıcı bölüyün komandiri, tank əleyhinə bölüyün komandiri, motoatıcı taborun qərargah rəisi, tabor komandirinin müavini, motoatıcı taborun komandiri vəzifələrində Beyləqan, Füzuli, Ağdam, Tərtər, Tovuz, Qazax və Göygöl-Murovdağda xidmət edib, “mayor” hərbi rütbəsinəcən yüksəlib. Xidmət etdiyi müddətdə mayor Vüsal Vəliyevə “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1928-2013) Yubiley medalı”,



“Azərbaycan Ordusunun 100 illiyi (1918-2018) Yubiley Medalı”, “10 il Qüsursuz xidmətlərə görə” 3-cü dərəcəli medalı, Azərbaycan Respublikası Müdafiə Naziri General-Polkovnik Zakir Həsənov tərəfindən təqdim edilmiş xüsusi medalla təltif olunub.

Vüsal Vəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı həmlə taborunun komandiri olub. Murovdağdan başlanan döyüş yolu Şuşanın azadlığınadək davam edib. Mayor Vüsal Vəliyev noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. 14 dekabr 2020-ci il tarixdə Şərur rayonundakı Şəhidlər Xiyabanında dəfn olunub.

Hərbi hissə qarşısında qoyulmuş bütün tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi, döyüşdə şücaət və igidlik göstərdiyi üçün mayor Vüsal Vəliyev ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamıyla “Vətən uğrunda”, “Kəlbəcərin azad olunmasına görə”, “İgidliyə görə” medalları və “Azərbaycan bayrağı” ordeni ilə təltif edilib.

Mayor Vüsal Vəliyev nişanlı idi.

Şəhid mayor Vüsal Vəliyevin haqqında “Qisas 44” və “Vüsalın dastanı” adlı iki kitab çap olunub. Onun doğulduğu Dizə kəndində əziz xatirəsinə “Şəhid Vüsal bulağı” adlı abidə-bulaq kompleksi inşa edilib. Şəhid mayor Vüsal Vəliyev haqqında onlarla sujet hazırlanıb, yüzlərlə məqalə, şeir və mahnılar yazılıb. Ölkənin müxtəlif məktəblərində onun adına sinif otaqları verilmişdir.

**Adilə NƏZƏR**
***Filologiya üzrə fəlsəfə doktoru***

# Bir şərəfli ömür səhifəsi

**Vətənin minlərlə qeyrətli oğlu 44 günlük haqq savaşımızda mübarizə meydanında düşmənlə son damla qanına qədər vuruşaraq qazandıqları zəfərlə Azərbaycanın yeni, şanlı tarixini yazdılar. Xalqın qəhrəmanlıq simvolunu öz adında yaşadan belə qəhrəmanlardan biri də astaralı şəhid Nurlan Rəhimovdur. Nurlan cismən bizdən ayrılsa da, qürur mənbəyimizə dönərək mənə qəlblərdə yaşayır.**





Qəlbi sevdalı bu Vətən oğlu qısa ömrünə qəhrəmanlıq, mərdliklə bərabər yaxşı ailə başçısı olmağı da sığdırmağı bacardı. Özündən sonra canından artıq sevdiyi Vətəninə, xalqına əmanət qoyduğu Əlövsət və Səidə adlı övladları vardır.



Azərbaycan qadınına məxsus bütün ali keyfiyyətlərini xasiyyətində cəm edən, gözəl ziyalı xanım olan həyat yoldaşı Səbinə Rəhimova hazırda Astara Pedaqoji Kollecində çalışır. Burada özünə görə hörmət və nüfuz sahibidir. Bu günlərdə kollecdə şəhid Nurlan Rəhimova həsr olunmuş ”Bir şərəfli ömür səhifəsi” adlı tədbir keçirildi.



Tədbirdə sinəsini Vətənə sipər edib, onu alınmaz qalaya döndərən zəfər şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anıldı, dövlət himni səslənildi.



Kollecin direktoru, şəhid atası K. Kazımov tədbirin giriş sözündə dedi:

- Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində yağı üzərində qazandığı möhtəşəm qələbəsi ilə tarixin səhifələrini yenilədi. Bu gün hər birimiz firavan həyat sürürüksə, bu Vətən, torpaq naminə döyüşüb qəhrəmancasına şəhid olan oğlanların hesabına yaranıb. Onların hər birinin döyüş yolu bir əfsanə, bir dastan, bir tarixdir. Milli-mənəvi birliyimiz, qəhrəman oğulların doğma el-obaya sədaqəti, mərdliyi və mətinliyi 44 günlük müharibədə özünü daha bariz şəkildə göstərdi. Öz xalqının əsrlərin sınağından çıxmış milli xüsusiyyətlərinin mahir daşıyıcısı olmaqla onların igidlik nümunələrində xalqın, millətin köklü duyğuları yaşayır. Milli mentalitetimiz, milli ləyaqətimiz məhz xalqın qiymətli potensialı olan belə oğulların çiyinlərində yüksəlir.

Digər natiqlər, Nurlan Rəhimovun qohumları - Hərbi Hava Qüvvələrinin zabiti polkovnikl-leytenant Emin Hüseynov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış Dövlət xidmətinin zabiti kapitan Ramin Hüseynov, şəhidin döyüş yoldaşı qazi Zamin Əsədov, kollecin məzunu, şəhid ailələrinin dostu qazi Abbas İbrahimli, Azərbaycan Milli Elmlər Akademiyasının Lənkəran Regional Elmi Mərkəzinin əməkdaşı, şəhid ailələrinin daim yanında olan Fərqanə Mikayılova şəhidlə bağlı xatirələrini bölüşdülər.

Tədbirdə şəhidin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayişi oldu.

Şəhidin ömür-gün yoldaşı Səbinə Rəhimova çıxış edərək kollecin rəhbərliyinə və tədbirdə əməyi keçənlərə, şəhidin döyüş yoldaşlarına təşəkkür etdi.

Şəhidlər heç vaxt unudulmur. Onların adı şirin nəğməyə dönüb zaman-zaman şirin dillərdən düşmür...

**Zəfər ORUCOĞLU,**
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

# İnsanlar öz mühitinin güzgüləridir

## Sosial mühitin anlamı və konsepti

**Biz hər birimiz müəyyən coğrafi və iqtisadi çərçivələr içində yaşayırıq, həm fiziki, həm də sosial mühitlə dərindən bağ qururuq. Sosial mühit tez-tez mədəniyyətlə eyniləşdirilir və bəzi alimlər bunu bir insanın "sosial irsi" adlandırır. Bu konsept cəmiyyətlə olan qarşılıqlı əlaqələrin və paylaşılmış inancların davranışlarımıza və baxışlarımıza necə əsaslı şəkildə təsir etdiyini vurğulayır.**

**Fərdlər "tam mühit" içində yaşayırlar ki, bu da bütün yaşam aspektlərini əhatə edən ekoloji bir anlayışdır. Coğrafi yerləşmədən tutmuş, icmanın iqtisadi fəaliyyətlərinə qədər, insanlar sosial irsləri ilə formalaşırlar ki, bu irsi ilk dəfə ailələrində tanıyırlar. Bir uşaq hansısa hadisəyə reaksiya göstərəkən, əslində, bir növ ona ailəsi tərəfindən "yüklənmiş proqram" tərəfindən cavab verir. Gün keçdikcə bu "proqram" təhsil aldığı, əyləndiyi, münasibət qurduğu dairələrlə yenilənir.**

***(Əvvəli ötən sayımızda)***

Mədəniyyət, biliklərin və ənənələrin nəsildən-nəsilə ötürülməsində də mühüm rol oynayır. Mədəniyyətin təsiri altında formalaşan təhsil sistemləri fərdlərin dünyagörüşünü, dəyərlərini və şəxsiyyətini inkişaf etdirir. Təhsil, mədəni biliklərin, vərdişlərin və davranış normalarının nəsildən-nəsilə ötürülməsində bir vasitə kimi xidmət edir. Bu, cəmiyyətin sabitliyini və davamlılığını təmin edir. Beləliklə, mədəniyyət yalnız fərdi davranışları deyil, cəmiyyətin inkişafını da formalaşdırır, mədəniyyətin müxtəlif aspektləri insanların gündəlik həyatına və sosial strukturlarına dərin təsir göstərir.

Bu mürəkkəb proses insanların bir araya gəlməsini, sosial əlaqələrini və cəmiyyətin inkişafını bir-biri ilə sıx bağlı şəkildə təmin edir. Mədəniyyətin bu cür təsirləri fərdlərin və cəmiyyətlərin həyatında əhəmiyyətli bir rol oynayır, insanların kimliyini və dünya görüşünü formalaşdırır.

### Sosial-iqtisadi şəraitin insan davranışına təsiri

Sosial iqtisadi şərait insanların gündəlik həyatına, qərar vermə qabiliyyətinə və davranışlarına birbaşa təsir edən amildir. Bu mövzuda tanınmış tədqiqatçı Amartya Sen "İqtisadiyyat və Sosial İddialar" adlı əsərində sosial iqtisadi amillərin insanların həyatına olan təsirini geniş müzakirə edir. Sen iqtisadi statusun insan davranışına olan təsirini izah edərkən, insanların sosial və iqtisadi resurslara olan əlçatanlığının əhəmiyyətini vurğulayır. Aşağı iqtisadi statusa malik insanlar daha az imkanlara və resurslara sahibdirlər, bu da onların davranışlarını müxtəlif yönlərdə formalaşdırır.

Aşağı gəlirli ailələrdə böyüyən uşaqlar təhsil, sağlamlıq və sosial fəaliyyətlərdə məhdudiyyətlərlə qarşılaşır. Bu, onların gələcəkdəki seçimlərinə və davranışlarına mənfi təsir göstərə bilər. Eyni zamanda, iqtisadi çətinliklər, stress və psixoloji narahatlıqlara səbəb olur.



Sen sosial-iqtisadi çətinliklərin insanların zehni sağlamlığına olan təsirlərini vurğulayır, bu da onların davranışlarını dəyişdirə bilər.

Sosial təbəqələşmə də insanların sosial mövqelərinə görə davranışlarını formalaşdırır. Yüksək sosial təbəqədən olan insanlar daha yaxşı təhsil və karyera imkanlarına malikdirlər ki, bu da onların davranışlarının formalaşmasında mühüm rol oynayır.

Sosial şəbəkələr insanların bir-birinə dəstək olmasını və daha müsbət davranışlar sərgiləməsini təmin edir. Aşağı sosial təbəqələrdə olan insanlar isə bu dəstək sistemlərindən məhrumdurlar.

Başqa bir məsələ isə bu iki təbəqənin insanları arasında qurulan münasibətlərdir. Dostluq münasibətlərində əgər iqtisadi fərqlər mövcuddursa, bu insanların müəyyən çevrələrdə olarkən çətinlik yaradır. Şəxsin dəyərləri uyğun olsa da, iqtisadi cəhətdən yuxarı olan qrupdan kənarda qalır. Bu isə getdikcə həmin şəxsin içinə qapanmasına səbəb ola bilər. İçinə qapanan insan daxilində günü-gündən böyüyən nifrəti bəsləyir. Bir müddət sonra bu aqressivliyin səbəbini belə unutsa, ətrafdakılara, xüsusilə "şanslı" insanlara qarşı qəzəbli olur. Lakin bunun tam tərsidə baş verə bilir. Məsələn şəxs çətinliklərə, fərqliliklərə rəğmən, həmin çevrədə qalmağı bacarır və önündə yeni qapılar açılır. Bu zaman fürsətlərdən yaxşı mənada istifadə edib inkişaf edir.

İş mühitinin sosial aspektləri də insan davranışına təsir edir. İş yerindəki mühit işçilərin davranışlarını formalaşdırır. İş mühitinin mədəniyyəti işçilərin motivasiyasını və məhsuldarlığını təsir edir. Müsbət bir təşkilat mədəniyyəti insanların özlərini dəyərli hiss etmələrinə və iş yerində müsbət davranışlar sərgiləmələrinə səbəb olur. Eyni zamanda, iş mühitindəki sosial əlaqələr, insanların emosional sağlamlığını artırır. Bu, işçilərin qarşılıqlı dəstək vermələrini və daha müsbət davranışlar sərgiləmələrini təşviq edir.

Amartya Sen sosial iqtisadi şəraitin insan davranışına olan təsirini geniş bir kontekstdə araşdırır. İqtisadi status, sosial təbəqələşmə və iş mühitinin sosial aspektləri insanların həyat keyfiyyətini və davranışlarını formalaşdıran mühüm amillərdir. Bu amillərin qarşılıqlı təsiri fərdlərin sosial dinamikalarını və davranışlarını dərin şəkildə formalaşdırır.

### Ailə və insanın davranışı

Ailə, insan həyatında əsas rol oynayan bir mühitdir. Uşaq ikən qurulan münasibətlər insanın gələcək davranışlarını, emosional sağlamlığını və sosial bacarıqlarını formalaşdırır. Bu kontekstdə, bağlılıq nəzəriyyəsi, erkən dövrlərdə valideyn-uşaq münasibətlərinin əhəmiyyətini vurğulayır və bu münasibətlərin insanın gələcək həyatına necə təsir etdiyini araşdırır.

Bağlılıq insanlar arasındakı emosional əlaqələrin əsasını təşkil edir. Uşağın valideyninə olan bağlılığı onun psixoloji inkişafı üçün həyati əhəmiyyət daşıyır. Sağlam bir bağlılıq uşağın özünə inamını artırır və sosial münasibətlərdə daha müsbət yanaşmalar sərgiləməyə imkan tanıyır. Əksinə, təhlükəli bir bağlılıq, uşağın gələcəkdə sosial əlaqələrdə çətinlik çəkməsinə səbəb ola bilər.

Ailə dinamikalarının rolu da bu nəzəriyyənin əsasını təşkil edir. Valideynlərin uşaqlarına göstərdiyi diqqət və emosional dəstək onların şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Uşağın sevgi və dəstək hiss etməsi, onların özlərinə inamını artırır. Ailə içindəki sağlam mühit, uşağın psixoloji sağlamlığını artıraraq, müsbət sosial davranışları inkişaf etdirir. Ancaq ailədəki münaqişələr və emosional çatışmazlıqlar, uşaqların psixologiyasına ciddi ziyan vura bilər.



**Sudabə DURSUNƏLİYEVA**
***Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının məzunu, Bakı Dövlət Universiteti, Sosial iş ixtisası üzrə magistrant***

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur**

# Fikirlər, qənaətlər, deyimlər



Eldar MƏMMƏDBƏYLİ
*Kimya elmləri doktoru, professor*

**Bahar təzəcə gələndə yarım əsrlik tanışım, həmkarım və dostum Rəsul Rəxşanlının 75 yaşı qeyd olundu. Mən də iri məqalə yazıb "Vışka" qəzetində dərç elətdirdim, çünki rusdilli oxucular da onu yaxşı tanıyır. Onun haqqında mən də dəfələrlə yazmışam, demişəm. Yazılanları oxumuşam, deyilənləri eşitmişəm. İşə güc verən, özü haqda susmağı xoşlayan olsa da onun haqqında tək-tək adamın və həmçinin mənim də bildiyim fərqli məqamlar var. Onlardan bir haqda ayrıca danışmağa dəyər.**

*(Əvvəli ötən sayımızda)*

İnsan, həyat, xoşbəxtlik, uğur, xeyir, şər də onu ömrünün şüurlu illərində düşündürüb. Yaşadıqlarından, müşahidələrindən, düşüncələrindən isə deyimlər, fikirlər, qənaətlər ortaya çıxmışdır. Onlardan da bir toplum təqdim etmək istərdim.

- Güclülər "hər kəs öz marağını qorumalıdır", zəiflərsə "ədalət hər şeydən ucadadır və hamı onun keşiyində durmalıdır" prinsipinə üstünlük verirlər.

- Kiminsə dediyi kimi həyat təkcə uğursuz evlənənləri deyil, həm də uğur-suz məmurları olan ölkədə yaşayanları filosof eləyir.

- Tusi və Nyuton, Nizami və Şekspir medal, laureatlıq almayıblar, lakin mi-silsiz olaraq qal-dılar. Medallar və laureatlıq həmişə layiqincə alınmır. Bir insanın nəyə layiq olduğunun etibarlı göstəricisi onun işinin nəticəsidir.

- Xalqların atalar sözləri, müdriklərin gəldikləri qənaətlər həyatın, yaşamaq elminin qanunları əvəzidir. Onları öyrənib riayət etmək çətinlikləri aradan qaldır-maqda, uğurları artırmaqda, böyütməkdə yardımçı ola bilər.

- Adam düşündüyü kimi hərəkət etdiyindən onun düzgün düşünməsinə nail olmağın vacibliyi aydınlaşır. Bu işi sonraya saxlamaq qətiyyən yaramaz.

- Kimə qarşısa ədalətsiz davranmağın ümumilikdə və şəxsən özünə də zə-rərli olduğunu hər kəs vicdanının hökmü ilə qəbul etdikdə, nəticəsi ümumi inki-şafımız üçün yüksək olar. İnsanlar ədalətin şəxsi maraqdan üstün olduğunu anla-yanda bu qənaətə gələcəklər. Həyat, inkişaf in-sanlara bunu diktə edəcək.

- Biz özümüzdən asılı olmayaraq həyata gəlirik. Xeyli yaşayandan sonra həya-ta gəlişimizin səbəbini anlamağa çalışırıq. İlk səbəb olaraq iki gəncin məhəbbətini görürük. Bununla kifa-yətlənməyənlər dərinliklərə baş vururlar. Dərinliklərdə isə incilər yatır. Fikrimcə mən də birisini tapdım. Bu da dünyanın və orada yaşamağın gözəlliyini anlamaqdır, nə qədər çətin olsa da. Həmin gözəllk isə bərabərdir: -xöşbəxt yaşamaq, üstə gəl dünyanı və həyatı gələcək nəsillər üçün daha gözəl et-mək.

- Mənə xoşbəxt olmaq vacibdir. Bunun üçün çox şeylər gərəkdir. Gündəlik tələbatı ödə-mək, daha nələr və nələr. Düzdür, bunlardan istifadə etdiyimə görə ödəyirəm və belə haqlıdır. Eyni zamanda istədiyim nələrin arasında mövcud olmayanlar da var ki, onları da əvəzsiz istə-mirəm. İnsanların da daha zəngin xoşbəxtliyi üçün istədikləri arasında mövcud olmayanlar yəqin ki, var. Həmin olmayanların yaradılması hər birimiz üçündür. Onları yaratmaq haqda hər kəs düşünməlidir. Olmayanlar yaradılarsa hamımız üçün gözəllik daha da böyüyə-cəkdir.

-Xoşbəxtlik odur ki, həyatda, təbiətdə olan bir şeyi götürürsən, beynindən katalizator qa-taraq qəlbinin hərarətilə isidirsən. Nəticədə həyatda, təbiətdə mövcud olmayan yenisi yaranır.

-Bilirik, hətta əminik də ki, özümüzünkü ilə yanaşı ətrafımızdakıların da sevinc əhvalruhiyyəsi bizə dəstəkdir. Fəaliyyətimizin, həyatımızın hansı istiqaməti seçməsində, günlərimizin uğurda keçməsində əhəmiyyəti az deyil. Beynimizlə, qəlbimizlə də bunu görürük. Bəs ətrafımız və sevinc hissi məgər həmişə özü-müzdən asılı olurmu?

-Beyinin xoş düşüncələri və dilin onları aydın ifadə etməsi başın ucalığı üçün nə qədər dəyərlidirsə, onun bəzən susması başın salamatlığı üçün daha vacibdir.

-Geniş mənada yaradıcı insanlar ilk olaraq yaratdıqlarına görə ətrafdakılara təsir bağışlasalarda sonralar isə yaxından olduqları kimi tanınırlar. İlk və sonrakı təsir isə heç də həmişə üst-üstə düşməyir.

-Çox bilik düzgün düşünməklə birlikdə qarşıdakı problemin həllini tap-mağa yadımçı olmursa onu beyinə yükləməyə dəyərmi?



-Fanatiklik bir cəhətdən üstündür ki, həmin sahədə yüksək və ya çox yüksək nəticələrə asa-nlıqla aparıb çıxara bilir. Lakin həmin uğurlar həmçinin digər sa-hələrdəki itirmələr hesabına baş verir. Bu halda təəssüflər olsun ki, nəticə etibarı ilə əldə edilənlərinmi, yaxud itirilənlərinmi daha dəyərli olduğunu hesablamaq heç də həmişə mümkün olmur.

-Kapitalizm şəxsi mənfəətə can atmağa intizamlayır, nəticədə olduqca çox adamlar, hətta, ən vacib şeylərsiz qalırlar, çünki kapitalistlərin heç də hamısı iş zamanı həm də ədalətə can atmağa intizamlanmayırlar. Hamının, yaxud heç olmazsa əksəriyyətin ədalətli olacağı yeni yola ehtiyac ortaya çıxır. Belə yeni yol salmağı bacarsa Bəşəriyyət rahat nəfəs ala biləcək.

-Deyirlər ki, məhəbbət gözəllik yaradır. Razıyam, di gəl ki, nifrət də gözəllik yaratmaq qabiliy-yətinə malikdir. Məgər nifrətdən gözəl əsərlər qələmə alınma-yıbmı, fırçadan çıxma-yıbmı, bəstə-lənməyibmi? Yaxşı olmayana nifrət təbii gücdür və o da yaradandır.

-Dəbli , gözəl, bahalı geyim hətta, gülər üz və nəzakət qaydaları ilə birlikdə belə daxilin təmiz-liyinə zəmanət verə bilməz.

- Problemi həll etməyə ağlı, bacarığı, nüfuzu çatmayanlar daha asan yola əl atmaq məcburiy-yətində qalırlar və təəssüf ki, bəzən yada həm də xəyanət, satqınlıq düşür.

-Axı deyiblər, ən yaxşı müdafiə hücumdur. Nədən qorxsan başla onu etməyə, qorxun yox ola-caq və ortaya fərli, bəlkə də qəlbi riqqətə gətirəcək nəsə çıxacaq.

-Qəribə də görünsə uğursuzluq da faydalı ola bilir, əlbəttə, düşünən və fəal insanlar üçün.

-Bəzən insan gördüklərinə yalnız içərisində etiraz edə bilir. Ümid bəsləyir ki, uşaqlıqda oxuduğu nağıllardakı kimi həyatda da sonda bu məsələdə ədalət qalib gələcək və bu ümid onu nə dərəcə-dəsə sakitləşdirir.

-Problemlərə adamlarda fərqli yanaşma olur. Bəzisi problemə sadəcə göz yummaqla onu aradan qaldırmış hesab edir. Başqası onun qarşısında diz çökür. Kimisi isə bu halda zəif nöqtəni inkişaf etdirməklə onu aradan qaldırır, irəliləyən də beləsi olur.

- Kimsə araşdırıb səhvini tapır, aradan qaldırmaq haqda düşünür, digəri isə nə baş verdiyi, nə etməyin lazımlığı haqda düşünmür, problemin səbəbini digərində görür və bununla da sakitlik tapır.

-Ehtiyacı ödəməkdən ötrü pul lazımdı düşünmək əvəzinə işləmək gərəkdi düşünülməsi fəaliy-yətdə də dəyişikliyə səbəb olardı.

-Biz həyat boyu nələrə görə çox-çox dəfələrlə özümüzü xöşbəxt hiss edə bilərik. Həqiqi xöş-bəxtliyi isə bizə ayrılmış həyatın son anlarında hesablaya bilərik. İnsanlardan, dünyadan aldıqları-mızdan artıq qaytırmışıqsa özümüzü xoşbəxt saymağa haqqımız çataq.

-Kimlərdənsə öyrəndiklərini, götürdüklərini xatırlamağa vaxt itirmə, həyat kifayət etməz. Sən-dəki özünün, bənzərsiz olanları tap və onları necə çoxalda biləcəyinizi düşün. Yaradıcı insanlar istis-nadır, onlara toxunmağa dəyməz, onlar səma ilə bağlıdır.

-Söylənən arzuya, rəyə inanmamaq olar, bunlar sübutdəlil tələb edənlərdir. Edilən işə, əmələ isə inanmamaq çətindir, onlar özü sübut-dəlildir.

- Pislik etmək tərgidilsəydi həyat yüngülləşərdi, yaxşılıq etmək adət-ənənəyə çevrilsəydi, həyat gözəlləşərdi.

-Fərqli ehtiyacın obyekti yeni olacağı yaratmağı diktə edir və yaratmaq iqtidarında olan isə ona həyat verir.

-Əgər müxtəlif uşaq idman intellektual oyunları yaradılması sahəsində işlər davam etdirilərsə və balacalar arasında çempionatlar və turnirlər keçirilərsə çoxlu ağıllı uşaqlar tərbiyə edəcəyik. Zaman ötdükcə belələrinə ehtiyac artır.

**Eldar MƏMMƏDBƏYLİ**
*Kimya elmləri doktoru, rofessor*

**Məmmədxan ƏZİZXANLI**
**Keçmiş prokuror**



# Tariximiz, tarixçiliyimiz...

## Üçüncü türkçülük çalışmalarına təkliflər

**Tariximizin, qəsdən, məqsədli olaraq, ərəbin islami düşüncə işğalında, xalqımızı dünyəvi inkişafdan uzaq saxlamaq üçün qaranlıq saxlanan qatları...**

1. Ərəblərin Azərbaycanı, başqa türk dövlətlərini işğalının tarixi - 639-720 (Azərbaycanın Ərəb İslam Xilafətinə-İmperiyasına qatılmasının başa çatdırılması), 816-838 (Xürrəmilər hərəkatı, Babəkin üsyanı, süqutu), detallarla - ərəblər tərəfindən müharibə qaydalarının insanlığa yaraşmayan vəhşiliklə pozulması, kütləvi qırğınlar - soyqırım, köləlik, cariyəlik kimi insan alveri, cinsi zorakılıq, əhalinin etnik tərkibini dəyişdirmək məqsədilə məcburi hamiləlik, siyasi, irqi, milli, etnik, mədəni, dini, vicdani, cinsi təqib.

a) Ərəb Xilafətinin-İmperiyasının türkləri yenməsinin əsas səbəbi - Ərəb İslam işğalı öncəsi türk dövlətlərinin dağınığlığı - Azərbaycanın durumu.

b) Ərəb İslamının qaba gücünün - Xilafət Ordusunun işğalının oturuşması ilə paralel, iç-içə Ərəbin Yumşaq Gücünün - Ərəb İslam Dininin zorla, ölüm təhdidi altında, qılınc gücünə, şirniklƏndirməklə Azərbaycanda oluşdurulması (əsasən Ərəb, Fars, Xristian dinli dövlətlərin mənbələrindən öyrənilməklə, detallarla yazılması).

c) İşğalda qaba güclə - Orduyla, yumşaq gücün - ərəbin islam dininin, ideologiyanın, təbliğatın oluşdurulması - yeri, gücü.

d) Bu konunu yazan müsəlman olmamalı, ateist olmalıdır, çünki müsəlman öz islam dini kimi gerçəyi saxtalaşdıracaq, yalan yazacaqdır.

2. Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılması, detallarla süqutu.(1918-1920-ci illər)

a) AXC-nin Parlament iclasının stenoqramı əsasında süqutun səbəbləri, stenoqramın toplu çapı.

b) AXC-nin Əks-kəşfiyyat Xidmətinin 9 üzvündən 4-nün bolşevik olmaları bilindiyi halda, barələrində gərəkən tədbirin görülməməsinin əsasları, səbəbləri, sonucları.

c) 19 aprel 1920-ci il tarixdə Yevlaxda, vaqonlara oturub, Yalamaya, Sovet Rusiyasının 11-ci Qırmızı Ordusunun hücumunun qarşısını almağa getməli olan, ermənilərə yenicə qalib gəlmiş AXC Ordusunun geri, qışlağa qayıtması haqda Müdafiə nazirinin müavini, o çağ müdafiə naziri Səmədağa Mehmandarovu əvəz edən Əliağa Şıxlinskinin əmrinin əsası, səbəbi, sonucu araşdırılmalıdır.

d) Azərbaycanda rus işğalına qarşı Gəncə qiyamının, bütünlükdə isə 52 qiyamın olması, əslində AXC-nin rus işğalına qarşı dirənməli olmasının əsasını təsdiqləmirdimi? Real dirəniş potensialından istifadə edilməməsinin tərəfdarları, səbəbi, sonucu-incələmə.

3.Azərbaycanın 3-cü Respublikasının bərpası, süqutu (1992-1993-cü illər) detallarla araşdırılmalıdır.

# Qəhrəmanlıq tarixi yazan Cəlal

**44 günlük haqq savaşımızda Vətən yolunda ölümü şərəf bilib onu öz qanı, canı bahasına alınmaz qalaya döndərən minlərlə qeyrətli övladlardan biri də Azərbaycan Silahlı Qüvvələrinin giziri şəhid Cəlal Ağaverdi oğlu Ağayevdir. İndi qazanılan qələbəmizin qəhrəmanlıq simvoluna çevrilən bu, Vətən sevdalısı 1984-cü ildə dekabrın 4-də Lerik rayonu, Kornədi kəndində dünyaya göz açıb.**



Doğma Azərbaycanı canından artıq sevən Cəlal Ağayev əsgərliyini başa vurandan sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin gizir ixtisası və hazırlıq kurslarını uğurla bitirib ömrünü hərbiyə bağlayıb. 17 il Vətənin keşiyində duran gizir əvvəlcə Goranboyda tank komandiri olub, sonra Tərtərdə xidmətini davam edib. Fəallığı , nizam-intizamı, vətənpərvərliyi ona hörmət qazandırıb. Düşmənlə üz-üzə gələndə ona layiqli cavab verib. Bütün bunlara görə 13 fəxri fərman, yubiley və 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medallara layiq olub.

Cəlal 2016-cı ildə başlayan Aprel döyüşlərində böyük şücaətlər göstərib. Belə ki, yağının kabusuna çevirməklə onlara qan uydurub. Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb və sentyabrın 29-u bu istiqamətdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhadətə qovuşub. Ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "İgidliyə görə" və digər medallar ilə təltif edilib.

Cəlal Ağayev cismən aramızdan getsə də, milyonların ürəyində yaşayır. Lerikdə böyük də, kiçik də öz qəhrəman oğlunu yad etməyi, həmişə xatirəsini əziz tutmağı ən müqəddəs borc bilir. Bu günlər rayon rəsmiləri, ictimaiyyət nümayəndələri Cəlalın doğum günündə-40 yaşının tamamında məzarını ziyarət etdilər, önünə gül dəstələri qoydular. O da bildirildi ki, Vətən, xalqı üçün canından keçənlərin ömrü əbədidir. Onlar hər cür ehtirama və məhəbbətə layiqdirlər. Cəlal Ağayev də belə...

Onu da deyim ki, zəfər şəhidimizin atası Ağaverdi kişi rayonda qabaqcıl, öz işini gözəl bilən bir mədəniyyət işçisi kimi böyük nüfuz, hörmət sahibidir.

**Zəfər ORUCOĞLU**

# Qərbi Azərbaycanın II Dünya müharibəsində iştirak edən Türk-Müsəlman əhalisi

**İkinci Dünya müharibəsi başlayanda (1939-cu ilin sentyabr ayında) Qərbi Azərbaycanın ümumi əhalisinin sayı 1 milyon 390 min nəfər olmuşdur. Bölgənin etnomilli tərkibində üstünlük təşkil edən (80%-dən çox) Türk-Müsəlman əhalisinin 300 min nəfərdən çoxu döyüş cəbhələrinə göndərilmiş, onlardan 200 min nəfəri isə geri dönməmişdir.**



Göyçə gölü hövzəsinin cənub-şərq hissəsində Basarkeçər nahiyəsinin Daşkənd, Qoşabulaq, Sarı Yaqub və Nərimanlı kəndlərinin əhatəsində/qonşuluğunda yerləşən Qayabaşı kəndinin əhalisi 1939-1940-cı illərdə 400 nəfərə yaxın (50-60 ev) olub, kəndin kökənli Türk-Müsəlman camaatı əkinçilik və heyvandarlıqla məşğul idi.

II Dünya müharibəsi cəbhəsinə bu kənddən 150 nəfərə yaxın soydaşımız yola salınmış, onlardan yalnız 30-35 nəfəri yaralı və ya sağ-salamat geri qayıtmışdır.

**Müharibədən qayıtmayanlar:**

1.Yusif Cəlil oğlu Nağıyev (1910-1943) - 3 oğlu qalıb (cəbhəyə yola düşdükdən 1 ay sonra dünyaya gələn oğluna onun adı verilib), əsir düşərgələrində qalıb, Latviya torpağında dəfn edilib;

2. Hacı Hüseyn oğlu (əslən qonşu Qarabulaq kəndindən olub, 1 oğlu qalıb;

3. Qulu Xəlil oğlu Xəlilov (1920-1942) - 2 oğlu, 1 qızı qalıb;

4. Hacı Hüseyn oğlu Məmmədov (1918-1943)- 1 uşağı qalıb, qonşu Qoşabulaq kəndindən idi, Qayabaşı kəndinə köçmüşdü;

5. Hətəm Oruc oğlu Məmmədov (1913-1945)-SSRİ-nin Cənubi Azərbaycandakı hərbi hissələrində qulluq edib;

**Müharibədən qayıdanlar:**

1. Nəsib Cəlil oğlu Nağıyev (1915-1968) - Gəncə şəhəri, Tatlı kəndində yaşayıb, doğma kəndində dəfn edilib;

2. Qabil Məhəmməd oğlu Nağıyev (1923-1976)-Qara dənizdə hərb gəmisinin vurulması nəticəsində, bir həftə suda qalıb, kənddə dəfn edilib;

3. Mirzalı Abdulla oğlu Şabanov (1886-1976)-uzun müddət kənd orta məktəbinin direktoru işləyib, sonra Özbəkistan Respublikasının Almalıq şəhərində, eyni adlı kənddə yaşayıb və orda dəfn edilib;

4. Xalid Abdulla oğlu Süleymanov (1904-1994) - kapitan olub, məcburi qaçqın həyatını Şəmkir rayonu, Bada kəndində yaşayıb və orada dəfn edilib;

5. Məhəmməd Allahverdi oğlu Sərdarov (1903-1993) - yaralı qayıtmışdır, Gəncə şəhərindəki İnternat/Qocalar evində yaşamış, orada vəfat etmişdir;

6. Fərhad Əsxas oğlu Qasımov (1906-1976) - kənddə dəfn edilib;

7. Əli Əlxas oğlu Qasımov (1905-1993) - yaralı qayıtmışdır, qaçqın həyatını Yevlax rayonu, Aran qəsəbəsində yaşayıb, orada dəfn edilib;

8. Behbud Məhəmməd oğlu Nağıyev (1920-1994) - İsmayıllı rayonu, Qubaxəlilli kəndində yaşayıb, orda dəfn edilib;

9. Şamil Nağı oğlu Nağıyev (1911-1986) - kənddə dəfn edilib.

Qeyd edək ki, 1989-cu ildə hay kilsəsinin təzyiqi ili məcburi olaraq Bakı, Sumqayıt, Gəncə...şəhərlərinə, Abşeron, Gədəbəy, Goranboy, Şəmkir...rayonlarına köçən Qayabaşı kənd sakinlərindən Müşfiq (1972) və Elçin (1975) Həsən oğlu Məmmədov qardaşları I Qarabağ müharibəsində iştirak etmişlər.

Onu da bildirək ki, II Qarabağ müharibəsində əslən Qayabaşı kəndindən və Qazi ailəsindən olan İlqar Müşfiq oğlu Həsənli (1998) və Rəhman Elçin oğlu Məmmədov (2001) Kəlbəcər, Ağdərə, Füzuli və Laçın rayonları uğrunda gedən döyüşlərdə iştirak etmişlər.

Bu döyüşlərin həmkəndli Qazisi Babək Ənvər oğlu Məmmədov (1975-2022) Abşeron rayonu ərazisində yol qəzasında vəfat etmişdir. Onun oğlu, Cavid Babək oğlu (2006) Bakı Ali Hərbi Məktəbdə təhsil alır...

Basarkeçər nahiyəsinin Pəmbək kəndi Göyçə gölünün cənub-şərq hissəsində eyni adlı çayın mənsəb hissəsində, göldən 1-2 km aralı alçaq yüksəkli və dağətəyi ərazidə, Babacan və Dərəkənd kəndləri ilə qonşuluqda yerləşir.

1939-1940-cı illərdə Pəmbək kəndində 35-40 ev olub, 300 nəfərə qədər əhalisi yaşayıb. Onlarda 70 nəfəri müharibəyə yola düşsə də, qanlı-qadalı cəbhədən yalnız 30 nəfəri geri qayıdıb.

**Müharibədən qayıtmayanlar:**

1. Məsim Əhməd oğlu Nəsibov (1918-1943)- subay olub;

2. Yusif Əhməd oğlu Nəsibov (1917-1942)- subay olub;

3. Növzalı Allahverdi oğlu Alıyev (1920-1942)-subay oiub;

4. Məlikalı Abdulla oğlu Hüseynov (1923-1942)-subay olub;

5. Qərib Həşim oğlu Kazımov (1921-1943)-subay olub;

6. Sayad Rzaqulu oğlu İrəşov (1920-1943)-subay olub;

**Müharibədən qayıdanlar:**

1. Gülmalı Məmməd oğlu Bayramov (1918-2021)-Abşeron rayonu, Mehdiabad qəsəbəsində dəfn edilib;

2. Məhəmməd Xələf oğlu Xələfov (1923-1978)-kənddə dəfn edilib;

3. Zaman Allahverdi oğlu Alıyev (1924-2004)-Gəncə şəhərində yaşayıb, orada dəfn edilib;

4. Qurban İsa oğlu İsayev (1921-1976)- kənddə dəfn edilib;

5. Ələsgər İsa oğlu İsayev (1923-1978)- kənddə dəfn edilib.

**Qeyd:** Yazının hazırlanmasında həm də Abşeron rayonu, Çaylı kəndində yaşayan Qayabaşı kənd sakinlərindən Həsən İsmayıl oğlu Əliyevin (1945), Şahsuvar İsmayıl oğlu Nağıyevin (1953) və Pəmbək kənd sakini Fəxrəddin Əhməd oğlu Nəsibovun (1956) məlumatlarından istifadə olunmuşdur).

**Qismət YUNUSOĞLU**
***Bakı Dövlət Universitetinin müəllimi***

# Allahın bəlası haya verildi



**12 dekabr 1988-ci ildə zəlzələdə zərərçəkmiş ermənilərə yardım göstərmək məqsədilə Azərbaycandan göndərilmiş il-76 təyyarəsi Ermənistanın Spitak rayonunun Quqark şəhərinin yaxınlığında "Stinger" raketi ilə vuruldu. Nəticədə təyyarədə olan 77 azərbaycanlıdan cəmi 1 nəfər - Balayev Fəxrəddin təsadüf nəticəsində sağ qalır. 68 nəfər azərbaycanlı sərnişin və 9 nəfər ekipaj üzvü bu terror aktının qurbanı olur. Qəzanın səbəbləri öyrənilmədən, heç bir ekspertiza aparılmadan təyyarənin qara qutusu məhv edilir. Bu terror aktı qəza hadisəsi kimi cəmiyyətə sırınır. Təsadüfən sağ qalmış Fəxrəddin Balayev İrəvan xəstəxanasına aparılsa da, "ermənilər arasında yaralı türkə yer yoxdu", - deyən daşnak xislətli erməni həkimləri onu müalicə etməkdən boyun qaçırırlar.**

Növbəti gün Türkiyədən Ermənistana uçuş keçirən Yuqoslaviyanın AN-12 təyyarəsi də qəzaya uğrayıb və 7 nəfər ekipaj üzvünün hamısı həlak olub. Bəzi iddialara görə, erməni terrorçuları təyyarənin Türkiyəyə aid olmasını güman edərək onu vurublar.

Fəxrəddin Balayev 2010-cu ildə vəfat edib. Prezident Heydər Əliyevin 1994-cü ildə imzaladığı sərəncamla ermənilərə yardıma gedən təyyarədə həlak olmuş 77 nəfərə şəhid statusu verilib.

Aşağıdakı şeir təyyarə qəzasında sağ qalan Fəxrəddin Balayevin xilaskarı, Kompressor zavodundan Leninakana xilasetmə işlərinə göndərilən mexanik, təmir sexinin rəisi Vaqif Əhmədova həsr edilir.

**(Poema)**

Allahın qəzəbi tutdu hayları,
Zəlzələ başladı, gəldi payları.
Nankor məxluqların arzu, niyyəti,
Başında çatladı, gəldi qisməti.

"Qarabağ"-deyərək, mitinq edirlər,
Verdiyi rüşvətdən nəsə güdürlər.
Təbiət bir yanda qırğın törətdi,
Spitak ellərini yerlə bir etdi.

Bir yanda qırıldı neçə minləri,
Meydana yığırlar mitinqçiləri.
Fürsəti gözləyib, dayanan "millət",
Məkrli niyyətiylə, qazandı nifrət.

Bir yanda məhv olur körpə uşaqlar,
Dağıntı altında inləyir onlar.
Bir yanda, fürsəti-fövtə verməyir,
Dağılan torpağa əvəz istəyir.

Axışıb gəlirlər dünya köməyə,
"Yazıq" erməniyə kömək etməyə.
Mişa da səfəri yarımçıq kəsdi,
Vaşinqtondan uçub, haraya gəldi.

"Qarabağ"-deyərək, meydana dolur,
Qırılan "millət"dən xəbəri yoxdur?
"Allahın bəlası bəlkə, dərs olar,
Öləni basdırıb, sonra qışqırar".

Böyük "humanist" Əbdürrəhman "bəyin",
Əlləri uzandı "?zabkeş" haya.
"Qardaşlıq" köməyi əsirgənməsin"-
Deyərək, təyyarə qalxdı səmaya.

Bir yandan qırılır yiyəsizləri,
Hər yanda ağlayır kimsəsizləri.
Bir yanda "Qarabağ"-deyib, anqırır,
Ölünü basdırır, yenə qışqırır.

Bir yanda dağılır, bir yanda batır,
Meydanda nifrəti gülüşə qatır.
"Qarabağ"-deyərək, sarsaqlayırlar,
Ağlayıb-gülənlər, yenə hayqırır.

Həyasız millətsən, ey "yazıq" haylar-
Süfrə artığını yeyib duranlar.
Şərəfsiz işləri asan sananlar,
Çörəyimi dadıb, quduzlaşanlar.

Qırıldın dağlarda, qaldın yiyəsiz,
Əl açdın köməyə, gəldi insanlar.
Ağladın, sızladın, qaldın kimsəsiz,
Köməyə gəldi neçə xilaskar.

Şaxtalı bir gündə igid oğullar,
Evlərdən xəbərsiz ora uçdular.
Xilazkar xalqım da köməyə getdi,
Erməni məkrinə qurban verildi.

Erməni xisləti ayaq açaraq,
Köməyə gələni göydə vuraraq,
Bir daha xəyanət yolunu tutdu,
"Stinger"lə, gələn, təyyarəni vurdu.

Təyyarə dağlarda yerə çırpıldı,
Yetmiş yeddi igid dağlarda yandı.
Xalqımız yenə də qana boyandı-
"Yuxarı, yuxudan, heç oyanmadı"...

Şəkinin igidi, ziyalı Vaqif,
Qəzanı görərək, oldu da vaqif.
Bir az aralıda işləyən Vaqif,
Qorxunu bilmədən oraya getdi.

Köməyə çağırdı sağ qalanlara-
İmdadım lazımdır, bəlkə, onlara.
Təyyarə büsbütün alova dönmüş,
Uçaqda olanlar, yerində ölmüş.

Ətrafa boylanıb, hay-küy qopardı,
Səsindən dağlarda ahı da yandı.
"Təyyarə bizimdir, bizim ölkənin",
Cəsədi yanırdı, neçə igidin.



Bir az aralıda, daşın altında,
Huşsuz uzanmışdı, insan orada.
Sürüyüb insanı kənara çəkdi,
Bir anda partlayış səsi yüksəldi.

Xəbərlər yayıldı, yaxın-uzağa,
"Sumqayıt gəncləri düşüb qəzaya"
Hamısı məhv oldu, hayın dağında,
Matəmlər başladı, gənc Sumqayıtda.

Yaralı insanı alıb dalına,
Endirib gətirdi dağın altına.
Rus hərbçiləri kömək göstərdi,
Xəstəyə o anda, yardım da etdi.

Birazdan yaralı özünə gəldi,
Olub-keçənləri yadına saldı.
Adını söylədi - Fəxrəddin idi,
Ölənin hamısı, sumqayıtlıydı.

Neçə igid oğlu Azərbaycanın,
Köməyinə tələsdi, mənfur hayların.
Namərdlər arxadan zərbə vurdular,
Təyyarəni vurub, yerə çırpdılar.

Erməni hiyləsi düzüb-qoşdular,
Yalançı xəbəri deyib, yaydılar:
"Buludlu havada enən təyyarə,
Pilotun səhvindən çırpıldı yer?".

Xəbərlər yayıldı, bir nəfər sağdı,
Yaralı halında, hospitaldadı.
"Deməli, şahid var, olub-keçənə,
Onu məhv etməli, anında, yenə".

Gecəykən gəldilər həkim yanına,
Xəbəri öyrənib, "çar?" tapdılar.
Baxmadı ölənin çoxlu sayına,
Onu da öldürüb, "rahatlanarlar".

Bir yandan bağlayan,
bir yandan açar,
Talelər, qismətlər ölər, oyanar.
Xəbəri öyrənib, biləndə, Vaqif,
Özü tədbir görüb, etdi də təklif.

Danışdı həkimlə, təklifi- dedi,
Xəbəri bildirib, əməl də etdi.
Vəziyyəti ağır olan Fəxrəddin,
Gecənin birində, yeri dəyişdi.

Xəbəri olmadı mənfur hayların,
Qadınlar içinə yeri dəyişdi.
Əlinə keçmədi axtaranların,
Xəfiyyələr işdən, duyuq düşmədi.

**Müəllif:**
**Niyaz Mustafa oğlu Süleymanov**







## Zəfər şəhidlərinə ehtiram






**Vətənin qeyrətli övladları 44 günlük haqq savaşımızda canından keçərək, xalqımıza şanlı qələbə yaşatdılar. 30 il düşmənə əsir düşən Qarabağımızda üç rəngli qələbə bayrağımızı ucaldan, ölümsüzlüyə qovuşan qəhrəmanlardan Taleh İsmayılov, Valeh Əkbərzadə Lənkəranın Boladi kəndində boya-başa çatıblar. Vətən, torpaq sevgisi ilə gözünü qırpmadan özünü odun, alovun içinə atıb əbədiyyətə qovuşan qəhrəmanlarla bütün lənkəranlılar qürur hissi keçirdir. Böyüklü-kiçikli onları yad etməyi, xatirələrini əziz tutmağı özlərinə müqəddəs borcu bilirlər. Adət üzrə hər iki zəfər şəhidin anım günündə məzarlarını ziyarət etdilər, önünə gül dəstələri qoydular. Həmçinin bildirdilər ki, Taleh, Valeh kimi oğullar ölməzdir. Qanı bahasına Vətəni alınmaz qalaya çevirənlər əbədi olaraq qəlbimizdə yaşayacaq.**

Taleh Səndəl oğlu İsmayılov 34 yaşında şəhidlik zirvəsinə ucalıb. Vətənə sevgi, düşmənə nifrət onun qəlbində məktəb illərində özünə yuva qurub. Cəbhə bölgəsində nümunəvi xidməti ona dərin hörmət qazandırıb. Həmişə düşmən tərəfindən Qarabağımızın işğalına qarşı barışmaz mövqe tutan Taleh yağıdan qisas alacağı günü gözləyib. Həyatını hərbiyə bağlamağı da bundan irəli gəlib. Əsgərlikdən sonra evə getmək əvəzində yenidən şanlı forma geyinib müddətdən artıq hərbi qulluqçu kimi artilleriya divizionunda xidmətini davam edib. Bu zaman döyüş meydanında yağıya qalib gəlmək üçün hərbi silahlar, eləcə 122 mm-lik D-30 HAUBİTSA -topu barədə mükəmməl biliklərə yiyələnib. Onun qazandığı biliklər 2016-cı ildə Aprel döyüşlərində öz bəhrəsini verib. Belı ki, savaş meydanında düşmənin kabusuna dönüb. 2020 sentyabrın 27-də Vətən müharibəsi başlanan zaman Taleh birinci döyüşə qatılıb. Füzulinin, Cəbrayılın, Qubadlının, Xocavəndin və Ağdamın azadlığı uğrunda böyük şücaət göstərib. Həmişə öndə olmaqla" Qələbə bizimdir!" sözləri dilindən düşməyib. 39 gün ağır müharibə meydanlarında yağıya qan qusduran qəhrəman Taleh Şuşa döyüşündə son damla qanına qədər vuruşub və şəhid olub.

Zəfər şəhidimiz Taleh İsmayılovun Murad, Yaqub, Yusif adlı 3 oğlu yadigar qalıb. Döyüş meydanında göstərdiyi hünəri isə dövlət tərəfindən III dərəcəli "Vətənə xidmətə görə", ordeninə, "Vətən uğrunda", "Şücaətə görə", "Döyüşdə fərqlənməyə görə", Xocavəndin, Füzulinin azadlığı uğrunda medallarına layiq görülüb.

22 fevral 1997-ci ildə dünyaya göz açan Valeh Əkbərzadə bir müddət Azərbaycan Silahlı Qüvvələrin tərkibində müddətli həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyət göstərib. Həmişə də sayılıb-seçilib. Hərbi xidmətdən sonra da gördüyü yaxşı, xeyirxah əməlləri ona başucalığı gətirib. 44 günlük Vətən naminə başlanan haqq savaşımıza könüllü qoşulub. Əlinə silah götürəndə ən böyük arzusu 30 il düşmən tapdağında qalan Qarabağımızı azad görmək olub. Füzulinin, Xocavəndin, Şuşanın azadlığı uğrunda gedən ölüm-dirim döyüşlərdə əsl qəhrəmanlıq göstərərək adını tarixə yazıb. Onun fədakarlığı, mərdliyi yoldaşlarına nümunə olub. Axırıncı dəfə Şuşada düşmənlə üz-üzə gəlib...

Qəhrəman döyüşçü Valeh Əkbərzadə ölümündə sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", Xocavəndin, Füzulinin, Şuşanın azadlığına görə medalları, III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib. Milyonların ürəyinə köç edən şəhid Valeh Əkbərzadənin hünərdə, qeyrətdə, Vətənə sevgidə ona bənzər Murad adlı oğlu vardır.

**Zəfər ORUCOĞLU**